26 iyul 2023 №55 (2024)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Mənim üçün Azərbaycan xalqının nə düşündüyü vacibdir”



Qədim İpək Yolunda yerləşən ölkələrin xüsusiyyəti, bəlkə də, oxşarlığı ondan ibarətdir ki, onlar cəmiyyətlərinin müxtəlifliyi, çoxetnik və çoxkonfessiyalı xarakteri ilə seçilir. Azərbaycan həmin müsbət ssenarinin bir hissəsidir. Buna görə Azərbaycanın mədəni irsi, gördüyünüz kimi, dövlətimiz tərəfindən lazımınca qorunur. Bu, bizim üçün qorunmalı, saxlanılmalı və yeni nəsillərə ötürülməli sərvətdir ki, onlar da eyni münasibət bəsləsinlər.

Prezident İlham Əliyev bu sözləri Çinin “China Global Television Network” media korporasiyasına müsahibəsində deyib. Müsahibə iyulun 22-də “China Global Television Network” televiziya kanalında yayımlanıb.

Çinli jurnalistin ölkəsinin irəli sürdüyü “Bir kəmər, bir yol” təşəbbüsünün mədəni dəyəri və qədim İpək Yolunun bərpası ilə bağlı sualına cavab olaraq İlham Əliyev bildirib ki, biz mədəni irsimizi əsrlər boyu qoruyub saxlamışıq. Baxmayaraq ki, Azərbaycan uzun müddət öz dövlətçiliyindən məhrum idi: “Biz müstəqil ölkə deyildik. Lakin, eyni zamanda, biz milli özünəməxsusluğumuzu, dilimizi, ədəbiyyatımızı, musiqimizi və ənənələrimizi, mədəni irsimizi qoruyub saxlamışıq. Hətta müstəqil olmadığımız vaxtlarda bunu bacarmışıq. Beləliklə, dünya irsinin bir hissəsi olan mədəni irsimizin qorunmasını birmənalı olaraq davam etdirəcəyik. Eyni zamanda, tərəfdaşlarla bağlantı yaradan bir çox layihələr daha çox səfərlərlə, turistlərlə, ticarətlə, qarşılıqlı fəaliyyətlə nəticələnəcək. Bunun sayəsində mədəniyyətlərimiz və cəmiyyətlərimiz daha da zənginləşəcək. Bir sözlə, biz həmin məsələyə belə nöqteyi-nəzərdən baxırıq. Bəxtimiz çox gətirib ki, Azərbaycan əsrlər boyu və xüsusən də, müstəqillik dövründə, sözün əsl mənasında, etnik və dini dözümlülüyün, birgəyaşayışın yüksək standartlarını nümayiş etdirir. Azərbaycanda bütün etnik qruplar bir ailə kimi yaşayır və bu, bizim ən böyük sərvətlərimizdən biridir. Biz bunları qorumağa çalışırıq və əminəm ki, bu işin öhdəsindən gələcəyik”.

*davamı səh. 2-də*

## XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı keçiriləcək

### Festivala ölkəmizlə yanaşı, Böyük Britaniya, Estoniya, Litva, Polşa, Rusiya və Türkiyədən musiqiçilər qatılacaq

Azərbaycanın dilbər guşələrindən olan Qəbələ şəhəri yenidən öz qapılarını musiqiçilərin və sənətsevərlərin üzünə açmağa hazırlaşır. 27 iyul – 2 avqust tarixlərində XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı keçiriləcək.




Bu il festival Heydər Əliyev Fondunun təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının iştirakı ilə gerçəkləşəcək.

2009-cu ildə əsası qoyulan Qəbələ Beynəlxalq Musiqi Festivalı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə töhfə verən musiqi bayramı kimi ölkəmizin hüdudlarından kənarda da şöhrət qazanıb.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan budəfəki Qəbələ Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Böyük Britaniya, Estoniya, Litva, Polşa, Rusiya və Türkiyədən dünya şöhrətli musiqiçilər – ifaçı və dirijorlar, musiqi kollektivləri də iştirak edəcək.

Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadənin bədii rəhbərliyi ilə təşkil olunan XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılışında “Viva Opera” adlı konsert proqramı təqdim ediləcək. Açılış konsertində Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və solistlər – Xalq artistləri Dinarə Əliyeva (soprano), Əvəz Abdullayev (bariton), Samir Cəfərov (tenor), Yusif Eyvazov (tenor) və Əməkdar artist Səbinə Əsədova (mezzo-soprano) çıxış edəcəklər.

Festivalda bu dəfə də musiqisevərlər üçün maraqlı proqramlar təqdim ediləcək. Bir həftə ərzində klassik, kamera musiqisi və muğam axşamları təşkil olunacaq.

*davamı səh. 3-də*

## Uşaq İncəsənət Festivalında final üçün seçimlər



Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi, “BP Azerbaijan” şirkətinin baş sponsorluğu ilə keçirilən Uşaq İncəsənət Festivalının ikinci – regional mərhələsi davam edir.

Üç mərhələdən ibarət festivalda 6-17 yaş arası şəxslər peşəkar və həvəskar olmaqla iki kateqoriya üzrə üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) iştirak edirlər.

Respublikamızda müstəqillik dövrünün ən irimiqyaslı incəsənət layihəsinə şəhər və rayonlardan, o cümlədən Naxçıvan Muxtar Respublikasından ümumilikdə 26 mindən çox iştirakçı qeydiyyatdan keçmişdi.

Festivalın birinci mərhələsi aprel-iyun aylarında gerçəkləşib. İkinci mərhələ isə iyul-avqust aylarını əhatə edir. Final mərhələsinin sentyabr ayında Bakıda keçirilməsi nəzərdə tutulur.

*davamı səh. 4-də*

## Laçınlıların doğma yurda qayıdışı davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.



İyulun 22-də və 25-də 22 ailə və 19 ailə olmaqla Laçına növbəti köç karvanları yola salınıb.

Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınan keçmiş məcburi köçkünlər doğma yurda qovuşmağın sevincini yaşayıblar.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

“27 yaşımda Laçından çıxmışam. Laçına çatanda torpağı öpəcəyəm. Nəhayət ki, həsrətimiz sona çatır. Dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuz düşməni torpağımızdan qovdu. İnanıram ki, bizi daha yaxşı günlər gözləyir”, – deyə Laçın rayon sakini Sevil Ağayeva deyib.

Qeyd edək ki, Laçın şəhərinə sakinlərin qayıdışı mayın 28-də başlayıb. Ötən müddətdə şəhərdə ümumilikdə 152 ailənin (591 nəfər) daimi məskunlaşması təmin edilib.

## “Mərmər soyuğu” Serbiyada mükafata layiq görülüb

Rejissor Asif Rüstəmovun “Mərmər soyuğu” filmi 15-21 iyul tarixlərində Serbiyada keçirilən 30-cu Paliç Avropa Film Festivalında “Münsiflər heyətinin xüsusi mükafatı”na layiq görülüb.

“Azərbaycanfilm” kinostudiyası, İctimai Televiziya, Bakı Media Mərkəzi və Fransanın “Arizona Films” şirkətlərinin birgə istehsalı olan “Mərmər soyuğu” filmi Mədəniyyət Nazirliyinin dəstəyi ilə ərsəyə gəlib.

*səh. 5*

## Bayburtda növbəti Dədə Qorqud festivalı




Türkiyənin şimal-şərqindəki qədim Bayburt şəhəri ənənəvi Dədə Qorqud festivalına ev sahibliyi edib. 17-23 iyul tarixlərində keçirilən 27-ci Dədə Qorqud Mədəniyyət və Sənət Şölənlərinin proqramı zəngin olub.

2018-ci ildə Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə təqdim etdiyi “Dədə Qorqud irsi: dastan mədəniyyəti, xalq nağılları və musiqisi” çoxmillətli nominasiyası UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.

*səh. 8*

## Yalnız səhnədə fərqlənmək istəyirdi...

Həyatda heç kimdən fərqlənmək istəməsə də, səhnədə çoxlarından fərqlənirdi. Özünəməxsusluğunu səhnədə, sənətdə göstərmək istəyirdi. Canlandırdığı müxtəlif xarakterli obrazlarla tamaşaçıların qəlbində iz qoydu.

Bu il 140 yaşını qeyd edən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının parlaq səhnə xadimlərindən olmuş Xalq artisti Əkbər Qardaşbəyovu 100 illik yubileyi münasibətilə yada salırıq.

*səh. 6*

## Kəndirbazla ip altında söhbət



“Öyrəndiyimi öyrənmişəm, indi isə daha çox öyrətmək, bu sənətin gələcək nəsillərə ötürülməsini, yaşamasını istəyirəm. Təəssüf ki, marağı olan uşaqlar azdır. Bacardıqca bildiklərimi oğlum Yusifəliyə öyrədirəm. Amma istəmirəm tək o bilsin, qoy, başqa balalarımız da maraqlansınlar. Onu da deyim ki, bu sənətlə lap kiçik yaşlardan məşğul olmaq lazımdır. Çox istərdim ki, çalışdığım Mədəniyyət evində bizim truppamız yaradılsın, biz bu xətlə qastrollara gedib, bu sahəni layiqincə təmsil edək...”.

*səh. 6*

## “Muğamat var olan yerdə”

Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Mədəniyyət Nazirliyi tərəfindən iyul ayı üçün musiqi kollektivlərinin regionlara qastrol səfərləri davam edir.



Bu çərçivədə Beynəlxalq Muğam Mərkəzinin solistləri iyulun 22-də Biləsuvar rayonunda yerləşən Cəbrayıl rayon Mədəniyyət evində “Muğamat var olan yerdə” adlı konsert proqramı ilə çıxış ediblər.

*səh. 5*

### Muzeylərə ziyarətçi marağı necədir?



*səh. 3*

### Mədəniyyət Nazirliyi nəşrlərin satın alınması ilə bağlı müsabiqə elan edib

*səh. 7*



### “Sən elə bir zirvəsən”lə mövsümə yekun vurulub

*səh. 5*

# “Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə qürur hissi keçirirəm”

Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə, ilk növbədə, hiss etdiyim qürur hissidir. Çünki xalqımla, ordumuzla, qəhrəmanlarımızla fəxr etməmək mümkün deyil.




Azərbaycan Prezidenti İlham Əliyev bu fikri iyulun 21-də “4-cü Sənaye inqilabı dövründə yeni media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib.

Vətən müharibəsinin əsgər və zabitlərimizin qəhrəmanlığını, xalqımızın vətənpərvərliyini bir daha nümayiş etdirdiyini vurğulayan Azərbaycan Prezidenti deyib: “Bütün bunlar xalqımızı bir daha hətta hər birimizə tanıtdı, Azərbaycan insanının necə yüksək mənəvi keyfiyyətlərə malik olmasını bir daha göstərdi, ilk növbədə, hər birimizə və bütün dünyaya”.

Prezident qeyd edib ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb. “Böyük Qayıdış” proqramı qəbul edilib, proqramın icrası üçün maliyyə resursları səfərbər edilib. İnfrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər təxminən 7 milyard ABŞ dollarına bərabər olacaq. Bu, ancaq başlanğıcdır.

“Birinci mərhələdə bizim əsas vəzifəmiz 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Artıq bir neçə yaşayış məntəqəsində insanlar məskunlaşıb”, – deyə dövlət başçısı bildirib.

Qeyd edək ki, 21-23 iyul tarixlərində mədəniyyət paytaxtımız Şuşada Qlobal Media Forumu keçirilib. Prezident İlham Əliyevin tapşırığına əsasən, “Heydər Əliyev İli” çərçivəsində və Azərbaycan milli mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən foruma 49 ölkədən 150 xarici qonaq qatılıb. O cümlədən 34 ölkənin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu tədbirdə təmsil olunub. Forumda yerli media qurumlarının rəhbər və nümayəndələri də iştirak ediblər.

Forumun ilk günündə Prezident İlham Əliyev iştirakçılarla görüşüb, müxtəlif ölkələrdən media nümayəndələrinin suallarını cavablandırıb.

# Prezident və birinci xanım Marianna Vardinoyannisin vəfatı ilə bağlı başsağlığı veriblər

Prezident İlham Əliyev Yunanıstanın tanınmış ictimai xadimi, Azərbaycanın yaxın dostu Marianna Vardinoyannisin vəfatı ilə əlaqədar mərhumun ailəsinə başsağlığı məktubu göndərib.



Dövlətimizin başçısı Marianna Vardinoyannisin insanlıq naminə nəcib əməlləri, bəşəri dəyərlərin təşviqi, çoxşaxəli humanitar və xeyriyyəçilik fəaliyyəti ilə dünyada böyük nüfuz və ehtiram qazandığını vurğulayıb.

Məktubda deyilir: “Yüksək insani keyfiyyətləri özündə cəmləşdirən Marianna Vardinoyannis Azərbaycanın əsl dostu idi. Onun Azərbaycan və Yunanıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında böyük xidmətləri var idi. Məhz buna görə o, Azərbaycan Respublikasının “Dostluq” ordeni ilə təltif olunmuşdur”.

Azərbaycan Prezidenti bildirib ki, bütün həyat və fəaliyyətini uca amallara həsr etmiş səmimi və xeyirxah insan Marianna Vardinoyannisin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

***

Birinci vitse-prezident Mehriban Əliyeva da Marianna Vardinoyannisin ailəsinə başsağlığı məktubu ünvanlayıb.

“Səmimi dostum, əziz və dəyərli insan olan Mariannanın vəfatı məni dərindən sarsıtdı. Yaxın insanı itirmək ağrısı heç nə ilə müqayisə oluna bilməz. Qəlblərimizi dolduran bu kədər hissini ifadə etməyə söz tapmaq çətindir.

Görkəmli ictimai xadim, vəfalı ömür-gün yoldaşı, etibarlı dost – Marianna onu tanıyanlar üçün xeyirxahlıq, nəciblik, mərhəmət, şəfqət rəmzi idi. O, parlaq, çalışqan, təşəbbüskar, insanların ağrı-acısını dərindən hiss etməyi bacaran əvəzsiz şəxsiyyət olaraq yaddaşlarda qalacaqdır”, – deyə məktubda qeyd olunur.

Məktubda Marianna Vardinoyannisin Azərbaycanın səmimi dostu olduğu vurğulanır. “Marianna ilə görüşlərimiz zamanı yaratdığı sevgi dolu, xoş və unudulmaz xatirələr daim qəlbimdə yaşayacaqdır”, – deyə Mehriban Əliyeva başsağlığı məktubunda bildirib.

Qeyd edək ki, UNESCO-nun xoşməramlı səfiri, geniş xeyriyyəçilik fəaliyyəti ilə tanınan Marianna Vardinoyannis iyulun 24-də 86 yaşında vəfat edib. Gəmiçilik sahəsi üzrə maqnat, milyarder Vardis Vardinoyannisin həyat yoldaşı olan Marianna Vardinoyannis xərçəng xəstəsi uşaqlara yardım üçün qurduğu Elpida Assosiasiyasının və özünün adını daşıyan xeyriyyə fondunun prezidenti idi.

# ABŞ yenidən UNESCO-nun üzvü oldu

İyulun 25-də Parisdə, UNESCO-nun mənzil-qərargahında ABŞ bayrağının qaldırılması mərasimi keçirilib. Tədbir Birləşmiş Ştatların təşkilatın tərkibinə qayıtmasına həsr olunub.

Mərasimdə ABŞ-nin birinci xanımı Cill Bayden iştirak edib. “Bu gün sizə qoşulmaq mənim üçün şərəf idi. Biz qlobal tərəfdaşlığımızın simvolu olan Birləşmiş Ştatların bayrağını ucaldırıq”, – deyə o bildirib.

ABŞ Donald Trampın prezidentliyi dövründə – 2018-ci ildə təşkilatı tərk etmişdi. Vaşinqton bu qərarı UNESCO-nun dərin yenidənqurmaya ehtiyacı olması ilə əsaslandırmışdı.

# “Mənim üçün Azərbaycan xalqının nə düşündüyü vacibdir”

## “Biz əlimizdə olan bütün vasitələrlə özünəməxsusluğumuzu və ləyaqətimizi müdafiə edəcəyik”

*əvvəli səh. 1-də*

Prezident diqqətə çatdırıb ki, ölkələr arasında iqtisadi-ticari əlaqələr sabitliyi, təhlükəsizliyi möhkəmləndirir və müəyyən dərəcədə, sözün yaxşı mənasında, qarşılıqlı bağlılığı artırır. İnsanlar, ölkələr üçün daha çox fayda olur. Bu şəraitdə, əlbəttə, sabitlik bərqərar olur.

### Milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmuruq

Dövlət başçısı jurnalistin Azərbaycan və Çin kimi qeyri-Qərb ölkələrin Qərb mətbuatında qərəzli təsviri haqqında fikrinə də münasibət bildirib. “Sizcə, bu, niyə baş verir? Səhv təsvirin verilməsinin arxasında duran meyarlar nədir” sualına cavabında Prezident İlham Əliyev deyib: “Eyni üsulu Çinə qarşı tətbiq etmələrinin səbəbini söyləmək mənim üçün çətindir. Çox güman ki, bunun səbəbləri var. Amma, Azərbaycana gəldikdə, amillər müxtəlifdir. Əsas olmasa da, həmin amillərdən biri Birləşmiş Ştatlarda, Fransada və bəzi digər Qərb ölkələrində erməni lobbisinin böyük infrastruktura malik olmasıdır. Onlar dövri olaraq Azərbaycana hücum çəkirlər, siyasətçiləri ələ alırlar, onların cəmiyyətinə, parlamentinə, mətbuatına və hökumət orqanlarına yol tapırlar. Bütün oxları Azərbaycana tuşlayırlar və bir növ, Azərbaycanofobiya mühitini yaradırlar. Lakin, bu, yeganə səbəb deyil. Düşünürəm, əsas səbəb ondan ibarətdir ki, Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür. Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycan prioritetlərimizə və milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmur. Başqa sözlə desək, biz müstəqil davranırıq və siyasətimiz müstəqildir. Biz əlimizdə olan bütün vasitələrlə özünəməxsusluğumuzu və ləyaqətimizi müdafiə edəcəyik. Fikrimcə, bu, əsas səbəbdir ki, Azərbaycan davamlı olaraq mətbuatın hədəfindədir, dırnaqarası müstəqil QHT-lərin hücumuna məruz qalır. Hamımız bilirik ki, onlar müstəqil deyil. Kim deyə bilər ki, “Human Rights Watch”, “Amnesty International” və “Freedom House” müstəqildirlər. Baxın, onlar kimdən pul alırlar və kim musiqini sifariş edir. Onda görəcəksiniz ki, onlar tamamilə asılıdırlar...”.

Prezident vurğulayıb ki, biz bu mühitdə yaşamağa öyrəşmişik. “Mənim üçün Qərb mətbuatının Azərbaycan haqqında yazdığı deyil, Azərbaycan xalqının hökumətimizin siyasəti barədə düşündüyü vacibdir. İnsanlarla söhbət apardıqda, görə bilərsiniz ki, onlar hökumətimiz barədə nə düşünür, gördüyümüz işlər düzdür, yoxsa səhvdir”, – deyə İlham Əliyev bildirib.

Dövlət başçısı qeyd edib ki, cəmiyyətimizin həmrəy olması və güclü ictimai dəstək, əlbəttə, əsasən bizim siyasətimiz, əvvəlcə işğal altında olmuş ərazilərin azad edilməsi sayəsində formalaşır: “Lakin, həmçinin bu, anti-Azərbaycan təşviqatına olan reaksiyadır. Əgər Qərbdə kimsə düşünür ki, hökumət rəsmilərini təhqir etməklə, böhtan və şayiələr yaymaqla Azərbaycanda ictimai rəyə təsir göstərə bilər, lakin həmin təsir onların görmək istədiyi istiqamətdə olmayacaq. Əksinə, cəmiyyət daha da həmrəy olur, çünki biz görürük ki, bu, ədalətli deyil. Biz 30 il işğala məruz qalmışdıq və Ermənistan işğalını orada pisləyən olmadı. Ərazi bütövlüyünü dilə gətirmirdilər...”.



### “Fransa Ermənistanın ən böyük vəkilinə çevrilib”

Prezident bildirib ki, bunlar ikili standartlardır və cəmiyyətimiz bunları çox yaxşı anlayır. Həmçinin bilmək vacibdir ki, söhbət təkcə bəzi jurnalistlərdən getmir. Bu halda hökumətlər də var: “Hazırda biz Fransa hökumətinin, əgər belə demək olarsa, çox əsassız hücumları ilə üzləşirik. Təsəvvür edirsinizmi, Fransa Ermənistanın ən böyük vəkilinə çevrilib. Yaxşı, bu, onların işidir, lakin onlar Avropada ən iri anti-Azərbaycan mənbəyinə çevriliblər. Onlar bizə hər istiqamətdə hücum çəkirlər. Onların xarici siyasi bəyanatları və rəsmilərin bəyanatları hər cür siyasi etikadan kənara çıxır. Onlar müharibə zamanı bizi elə məsələlərdə ittiham etdilər ki, biz bunları heç vaxt etməmişik və bununla bağlı, üzr belə istəmədilər. İndi isə onlar bizi öz ərazimizdə gördüyümüz işlərə görə ittiham edirlər. Baxın hələ bunu kim edir? O ölkə ki, Korsika dilinə qadağa qoyur, Korsikada öz müqəddəratını təyin etmək hərəkatını qəddarcasına boğur. Onlar Qarabağda ermənilərin “öz müqəddəratını təyin etmələrini” təşviq edirlər. Bu, necə ola bilər? Müharibə zamanı siyasi təcavüz bütün sərhədləri aşanda, dedim ki, əgər onlar “Dağlıq Qarabağ respublikasını” haradasa qurmaq istəsələr, qoy öz ərazisində qursunlar. Məsələn, çoxlu erməninin yaşadığı Marsel şəhərinin ətrafında qurub, “Dağlıq Qarabağ respublikasını” orada elan etsinlər, biz də tanıyaq. Bu ölkə hələ də öz müstəmləkəçilik siyasətini davam etdirir. Baxın Mayot adasına, Fransanın müstəmləkəsi. Yeni Kaledoniya, Fransanın müstəmləkəsi. Onlar hələ də insan hüquqları haqqında danışır!? Bu, siyasi riyakarlıqdır. İndi söylədiklərimi biz deyəndə isə, siz görürsünüz ki, onlar bütün mətbuatı dərhal işə salır, Azərbaycanı, onun rəhbərlərini və siyasətini təhqir etməyə, hücum çəkməyə, şayiə yaymağa başlayırlar”.

### “İlin sonuna qədər sülh müqaviləsi imzalaya bilərik...”

Prezident müsahibədə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması perspektivləri barədə də danışıb: “Düşünürəm ki, ona ən yaxın gələcəkdə nail olmaq olar. Nəyə görə mən bu cür düşünürəm, çünki Ermənistan çox mühüm bəyanatla çıxış etməli idi ki, onlar nəinki Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, – əslində, onlar bunu rəsmən ötən ilin oktyabrında bəyan etdilər və sonra bir neçə dəfə təsdiqlədilər, – həmçinin bu ilin mayında onlar bunu aydınlaşdırdılar, çünki biz tələb etdik ki, onlar Qarabağı Azərbaycanın hissəsi kimi tanıdıqlarını qeyd etsinlər. Onlar Azərbaycanın ərazi bütövlüyünü 86,6 min kvadrat kilometr ərazidə tanıdılar. Bu əraziyə Qarabağ və Ermənistan ərazisində olan səkkiz Azərbaycan anklavı da daxildir. Bu, əslində, mühüm bəyanatdır. Bundan sonra qalan yeganə məsələ, bunu kağız üzərinə köçürmək və imzalamaqdır. İkinci Qarabağ müharibəsi bitdikdən sonra, sülh müqaviləsi ilə bağlı mövqeyimiz həmin müqavilənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmasından ibarətdir”.

Dövlət başçısı qeyd edib ki, biz sülh müqaviləsinin əsasını təşkil etməli olan beş beynəlxalq təməl prinsipini hazırlamışıq. Bir neçə dəfə danışıqlar aparılıb və proses davam etdirilir: “Fikir ayrılığının yeganə əsas müddəası onunla bağlı idi ki, Ermənistan Qarabağı rəsmən Azərbaycanın hissəsi kimi tanısın. Artıq dediyim kimi, bir – onlar qeyd etməlidir ki, Qarabağ Azərbaycandır və indi isə, onlar ikincini etməlidirlər: imzalamalıdırlar. Bundan sonra razılaşma əldə oluna bilər və düşünürəm ki, əgər ermənilər söylədiklərini yerinə yetirərlərsə və əgər bu, yenidən siyasi manevr deyilsə, prosesi yubatmaq cəhdləri naminə ixtira edilən hekayət deyilsə, onda biz ilin sonuna qədər sülh müqaviləsinə nail olaraq, onu imzalaya bilərik. Bu, həqiqətən, mühüm geosiyasi amilə çevrilə bilər, uzunmüddətli qarşıdurmaya son qoyar, Qafqazda real sülh yaradar, bütün kommunikasiyaları açar. Həmçinin əlavə etmək istəyirəm, Azərbaycandakı erməni azlığına gəldikdə, biz artıq rəsmən bəyan etmişik ki, onların hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq. Bununla belə, Azərbaycan onlarla etnik qrupun, o cümlədən ermənilərin yaşadığı ölkədir. Bizim dini və ya etnik zəmində heç zaman hər hansı problemimiz olmayıb. Buna görə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər hər hansı digər Azərbaycan vətəndaşı qədər bərabər hüquq və təhlükəsizlik zəmanətinə malik olacaqlar”.

### Azərbaycan çinli turistlər üçün nə ilə cəlbedicidir?

Jurnalist müsahibənin sonunda Prezident İlham Əliyevdən Azərbaycanı Çin turistləri üçün cəlbedici edə bilən xüsusiyyətləri sadalamağı xahiş edib.

Prezident deyib: “Birincisi, insanlarımız çox mehriban və qonaqpərvərdirlər. İkincisi, bizim çox müasir hotel infrastrukturumuz var. Rəngarəng təbiətimiz var. Ölkədə doqquz iqlim qurşağı var. Ölkənin ərazisi o qədər böyük deyil, siz qatarla, avtomobillə və yaxud ən uzağı təyyarə ilə asanca qət edə bilərsiniz. Yol infrastrukturu ən yaxşılar sırasındadır. Mətbəx, fikrimcə, ən yaxşılar sırasındadır. Hava çox yaxşıdır. Dağlarda xizək sürə bilərsiniz. Xəzər dənizində üzə bilərsiniz. Velosipedlə dağlara çıxmaq, palçıq vulkanlarını görmək, Qarabağın dağlarına və meşələrinə getmək olar. Göl və çaylarımız var. Həmçinin düşünürəm ki, çinli turistlər görəcəklər ki, Azərbaycan xalqının Çinə böyük rəğbəti var. Onlar ölkənizi tanıyır, dost olduğumuzu bilirlər. Ona görə çinlilər özlərini öz evindəki kimi hiss edəcəklər”.

# Danışıqlar prosesinin dinamikası yüksəkdir



Azərbaycan-Ermənistan danışıqlar prosesinin dinamikası kifayət qədər yüksəkdir.

Xarici işlər naziri Ceyhun Bayramov bu barədə iyulun 25-də Moskvada Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlikləri rəhbərlərinin üçtərəfli görüşündə bildirib.

Nazir qeyd edib ki, danışıqların nəticələri danışıqlar prosesinin özünün dinamikasından bir qədər aşağıdır. “Lakin müsbət nəticələrin olmadığını söyləmək düzgün olmazdı”, – deyə o əlavə edib.

Ceyhun Bayramov vurğulayıb ki, Moskvada keçirilən görüş zamanı tərəflər, ilk növbədə, Azərbaycan və Ermənistan arasında sülh sazişinin maddələrini müzakirə edəcəklər.

Danışıqlar fəal gedir, lakin hələ də bir çox həll olunmamış məsələlər qalır. Bunu isə Ermənistan xarici işlər naziri Ararat Mirzoyan deyib.

“Gündəlikdəki bütün məsələlər üzrə görüşlərimiz, danışıqlarımız kifayət qədər intensivdir, bəzi məsələlərdə konkret nəticələr var, bəzi məsələlərdə tərəflərin qarşılıqlı razılığa gələ biləcəyi bəzi perspektivlər görünür”, – deyə o əlavə edib.

# Dövlət Sərhəd Xidmətindən xəbərdarlıq

Dövlət Sərhəd Xidməti (DSX) “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin Ermənistan tərəfində planlaşdırılan təxribatla əlaqədar xəbərdarlıq edib.



“Əldə edilmiş məlumata əsasən, “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfdən olan girişində iyulun 26-da Ermənistan tərəfindən müxtəlif nəqliyyat vasitələrinin toplanmasını təşkil etməklə nümayişkaranə şəkildə növbəti təxribat əməli planlaşdırılır”, – deyə DSX-dən bildirilib.

DSX Ermənistan tərəfini bu kimi təxribat məqsədi daşıyan və vəziyyətin gərginləşməsinə xidmət edən əməllərdən çəkinməyə çağırıb: “Bir daha bildiririk ki, mümkün təxribat əməllərinə görə bütün məsuliyyət tam şəkildə Ermənistan tərəfinin üzərinə düşəcəkdir”.

# XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı keçiriləcək

## Festivala ölkəmizlə yanaşı, Böyük Britaniya, Estoniya, Litva, Polşa, Rusiya və Türkiyədən musiqiçilər qatılacaq

əvvəli səh. 1-də

Festival günlərində Bakı Kamera Orkestri, "Clarte" klarnet kvarteti, "Qaytağı" instrumental ansamblı, Litva Kamera Orkestri, eləcə də Xalq artistləri Ənvər Sadıqov, Fərhad Bədəlbəyli, Gülnaz İsmayılova, Murad Adıgözəlzadə, Ülviyyə Hacıbəyova, Yeganə Axundova, Əməkdar artistlər Emil Əfrasiyab, Fuad İbrahimov, Fəridə Məmmədova musiqisevərlərin qarşısına çıxacaqlar.

Həmçinin respublika və beynəlxalq müsabiqələr laureatları Ataş Qarayev, Dennis Həsənov (Rusiya), Elmina Həsənova, Əli Məmmədov, Humay Hacızadə, Mahir Tağızadə, Mustafa Mehmandarov, Nərgiz Kəngərli, Osman Mustafazadə, Rüstəm Zeynalov, Səidə Tağızadə, Ümidə Abbasova, Vurğun Vəkilov, Dmitri Sitkovetski (Böyük Britaniya, dirijor), Mixail Lidski (Rusiya, piano), Henri-David Varema (Estoniya, violonçel), Mariuş Patira (Polşa, violin), istedadlı gənc solistlər, muğam ifaçıları çıxış edəcəklər.



Görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun 90 illik yubileyi, tanınmış pianoçu Bella Davidoviçin 95, dahi bəstəkarlar Sergey Raxmaninovun 150 illik və Yohannes Bramsın 190 illik yubileyləri də festival çərçivəsində xüsusi musiqi proqramları ilə qeyd ediləcək.

Festival günlərində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gənclərə dəstək" layihəsi çərçivəsində gənc ifaçıların konserti, Mixail Lidski (piano) və Henri-David Varemanın (violonçel) ustad dərsləri də olacaq.

Qeyd edək ki, Qəbələ Beynəlxalq Musiqi Festivalı 2009-2019-cu illərdə hər il – ümumilikdə 11 dəfə təşkil edilib. 2020-ci ildə koronavirus pandemiyası səbəbi ilə festival keçirilməyib.

Bundan öncəki, XII Qəbələ Beynəlxalq Musiqi Festivalı 2021-ci ildə 31 iyul – 4 avqust tarixlərində gerçəkləşib. Festival həmin il qeyd olunan əlamətdar hadisəyə – Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinə həsr olunmuşdu.

# Muzeylərə ziyarətçi marağı necədir?

2023-cü ilin altı ayı ərzində Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyini və onun filiallarını 9 mindən çox turist ziyarət edib. Onların 300-dən çoxu xarici turist olub.

Musiqi Mədəniyyəti Dövlət Muzeyindən bildirilib ki, muzeyin və filiallarının – Niyazinin Mənzil-Muzeyi, Qara Qarayevin və Vaqif Mustafazadənin ev-muzeylərinin əcnəbi ziyarətçiləri arasında Türkiyə, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri və Rusiyadan gələn turistlər üstünlük təşkil edib. Bundan əlavə, ABŞ, Fransa, Yaponiya, Çin, İsrail, Belarus, Qazaxıstan və başqa ölkələrdən də turistlər muzeyi ziyarət ediblər.

***



Cari ilin altı ayında Azərbaycan İstiqlal Muzeyini 6336 nəfər ziyarət edib. Muzeydən verilən məlumata görə, onların 366 nəfəri xarici turist olub.

Muzeyi ziyarət edən xarici turistlər arasında Böyük Britaniya, Pakistan, ərəb ölkələrindən olan turistlər üstünlük təşkil ediblər.

# Xətai Sənət Mərkəzində "Etüd əsərlər guşəsi"



Bakıdakı Xətai Sənət Mərkəzi naturadan işlənmiş əsərlərə ictimai marağın artırılmasına xidmət məqsədilə mərkəzdə "Etüd əsərlər guşəsi" yaradıb.

Mərkəzin direktoru Zahid Əvəzov bildirib ki, indiyədək Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı və Azərbaycan Dövlət Rəsm Qalereyası ilə birgə etüd yönlü müxtəlif tədbirlər həyata keçiriblər. Mərkəzdə ayrı-ayrı zamanlarda rəssamlardan əldə edilən etüd əsərləri toplanıb. Onların bir hissəsi guşədə sərgilənir.

Hər bir rəssam guşəyə özünün etüd əsərini təklif edə bilər və hər kəs bu əsərdən bəyəndiyini əldə edə bilər. Etüd əsərlər guşəsi və etüd əsərlər haqda yenilikləri Xətai Sənət Mərkəzinin media hesabları üzərindən izləmək mümkün olacaq.

# "Sarı gəlinin sorağında"

## Qərbi Azərbaycanın mədəni irsi ilə bağlı sənədli film çəkilir

Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Qərbi Azərbaycan: maddi və mədəni irsimiz" adlı layihənin icrasına başlayıb.



AKİ-dən bildirilib ki, layihə çərçivəsində "Sarı gəlinin sorağında" tammetrajlı sənədli filminin çəkilişlərinə başlanılıb.

Filmin ssenari müəllifi Füzuli Sabiroğlu, rejissoru Mübariz Nağıyev, operatoru Fahir Səmədoğlu, prodüseri AKİ-nin katibi Əli İsa Cabbarov, xətti prodüseri İsmayıl Qasımovdur.

Film ingilis və erməni dillərində də yayımlanacaq. Sənədli filmdən savayı layihə çərçivəsində sözügedən mövzuda sayt və infoqrafikaların (erməni və ingilis dillərində) hazırlanması da nəzərdə tutulur.

# Azərbaycanın multikulturalizm təcrübəsi digər ölkələr üçün böyük önəm daşıyır

Azərbaycana ilk dəfə səfər edirəm, lakin bu ölkədəki dini və etnik tolerantlıq barədə məlumatlıyam. Bu səfərim də Azərbaycanın dini mühiti ilə yerində tanış olmaq məqsədi daşıyır.



Almaniya Müsəlmanları Mərkəzi Şurasının sədri Ayman Mayzek bunu iyulun 25-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə ilə görüşündə deyib.

QMİ-nin mətbuat xidmətindən bildirilib ki, görüşdə şeyxülislam Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyəsi və ölkəmizdə hökm sürən dinlərarası harmoniya, məzhəblərarası anlaşma mühiti barədə ətraflı danışıb. Azərbaycan dövlətinin 44 günlük Vətən müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda həyata keçirdiyi geniş bərpa-yenidənqurma işləri barədə məlumat verən QMİ sədri erməni vandalizminə məruz qalmış dini-mənəvi abidələrimizin böyük diqqət və qayğı ilə bərpa edildiyini qonağın diqqətinə çatdırıb.

Avropa dini icma və mərkəzləri, o cümlədən, Avropa ölkələrindəki müsəlman icmaları ilə fəal əlaqələrdən bəhs edən şeyxülislam Allahşükür Paşazadə ayrı-ayrı Avropa ölkələrində islamofobiya hallarının, o cümlədən Quranın yandırılması kimi aksiyaların təşkilinin sivilizasiyalararası dialoq prosesinə xələl gətirdiyini vurğulayıb. Dinlərin müqəddəs rəmzlərinə ehtiramlı münasibətin zəruriliyini, dindən siyasi məqsədlər üçün sui-istifadənin yolverilməzliyini qeyd edən QMİ sədri erməni kilsəsinin Azərbaycana qarşı yaxmaxma kampaniyaları, öz revanşist məqsədləri üçün dini müstəvilərdən, ələlxüsus, Dünya Kilsələr Şurasının tribunasından sui-istifadə etməsindən danışıb.

Almaniyalı qonaq da Avropada Quranın yandırılması hallarına toxunub, bildirib ki, bundan Avropa cəmiyyətlərinin özləri də narahat olmalıdırlar. Ayman Mayzek bildirib ki, Azərbaycanın malik olduğu multikultural, tolerant cəmiyyət təcrübəsi nəinki müsəlman, bütün dünya ölkələri üçün olduqca böyük önəm kəsb edir.

Almaniyalı qonaq görüşdən sonra Təzəpir məscidini ziyarət edib, orada namaz qılıb.

# Nobel mükafatı ala bilməsək də...

## Yolunu-yolağasını öyrənməkdə fayda var

Azərbaycan Milli Elmlər Akademiyası bu ilin oktyabr ayında "Nobel mükafatına aparan yolun dərsləri: mif, çətinliklər, uğurlar və çağırışlar" mövzusunda elmi konfrans keçirməyi planlaşdırır. Bununla bağlı təşkilat komitəsinin iclası olub.

İclasda AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qeyd edib ki, konfransın keçirilməsində başlıca məqsəd ölkəmizdə Nobel mükafatı haqqında maarifləndirmə işlərinin aparılması, Azərbaycan elminin bu mükafatı qazanmış alimlərin tədqiqat istiqamətlərinə doğru yönləndirilməsi, həmçinin mövcud miflərin və süni baryerlərin sındırılmasına kömək etməkdir.



Nobel mükafatının 122 illik (1901-ci ildən təqdim edilir) tarixinə nəzər salan akademik laureatlar arasında Bakıda doğulmuş yəhudi əsilli alim Lev Landaunun (fizika üzrə Nobel mükafatçısı), eləcə də Cənubi Azərbaycandan insan haqları müdafiəçisi Şirin Ebadinin (Nobel sülh mükafatçısı) olmasını diqqətə çatdırıb. Bildirib ki, məşhur kimyaçı alim Yusuf Məmmədəliyevin və cərrah Mustafa bəy Topçubaşovun da Nobel mükafatına namizədlər kimi təqdim edilməsinə dair qeyri-rəsmi məlumatlar var.

İsa Həbibbəyli qeyd edib ki, nəzərdə tutulan beynəlxalq konfransda kimya üzrə Nobel mükafatı laureatı, türkiyəli alim Əziz Sancar və banqladeşli Nobel sülh mükafatçısı Məhəmməd Yunusun şəxsən və ya onlayn formatda iştirak etmələri üçün iş aparılır.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev AMEA-nın təşkilatçılığı ilə keçiriləcək konfransa dəstək verəcəklərini bildirib. Təşkilat komitəsinin üzvlərindən akademiklər Arif Həşimov, Dilqəm Tağıyev, İradə Hüseynova, professor Kərim Şükürov, tarix elmləri doktoru Zemfira Hacıyeva, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov və başqaları fikir və təkliflərini səsləndiriblər.

# Humanitar mandatdan siyasi məqsədlər üçün sui-istifadə edilməməlidir

## Xarici İşlər Nazirliyi BQXK-nın bəyanatına şərh verib

Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) humanitar mandatına riayət olunmalı və ondan siyasi məqsədlər üçün sui-istifadə edilməməlidir.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) bölgədə humanitar vəziyyətə bağlı iyulun 25-də səsləndirdiyi bəyanatına dair şərhində vurğulanır.

XİN diqqətə çatdırır ki, cari il iyunun 15-də Laçın sərhəd-buraxılış məntəqəsinin atəşə tutulması, iyul ayında erməni əsilli sürücülərin BQXK-ya məxsus nəqliyyat vasitələrində qaçaqmalçılıq məhsullarını Azərbaycana gətirmək cəhdləri Ermənistan tərəfinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı növbəti qeyri-qanuni fəaliyyət, eləcə də sərhəd keçid məntəqəsinin fəaliyyətinə maneçilik kimi qiymətləndirilib və bu kimi pozucu tədbirlərə son qoyulması tələb olunub.

Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyət cəhdlərinin qarşısını almaq fonunda yanaşı, Azərbaycan tərəfi BQXK ilə vacib əməkdaşlığı davam etdirib. Azərbaycan tərəfinin BQXK ilə apardığı müzakirələrdən sonra, zəruri qaydalara riayət etməklə, BQXK vasitəsilə erməni sakinlərin tibbi məqsədlər üçün sərhəd məntəqəsindən keçidinin davam etməsinə şərait yaradılıb və gün ərzində onlarla erməni sakin hər iki istiqamətdə sərhəd məntəqəsindən keçib.

Daha böyük miqdarda dərman preparatları və yüklərin daşınması, tədarükü üçün Azərbaycan tərəfindən Ağdam-Xankəndi yolundan istifadə etməklə yardım təklif olunub. Lakin buna baxmayaraq, təəssüflər olsun ki, erməni tərəfi təkidlə bu yoldan imtina edir.

Bununla yanaşı, erməni sakinlərin tibbi məqsədlər üçün Laçın sərhəd-buraxılış məntəqəsindən BQXK vasitəsilə keçidinin daha da asanlaşdırılması məqsədilə BQXK-nın həkiminin əraziyə gətirilməsi ilə bağlı razılıq əldə olunmasına baxmayaraq, yerində bundan imtina olunması da təəssüf doğurur.

"Erməni tərəfinin Azərbaycan tərəfindən atılan addımlara və dəstək niyyətinə, o cümlədən BQXK tərəfindən sözügedən bəyanatda da qeyd edildiyi kimi, Ağdam-Xankəndi və digər alternativ yollardan istifadə edilməsi təkliflərinə qarşı çıxması bölgədə "gərgin humanitar vəziyyət" iddialarının siyasi manipulyasiya və təzyiq vasitəsi olduğunun bir daha sübut edir", – deyə XİN-in şərhində vurğulanır.

# "Dəyərlərimizin xilaskarı"

25-27 iyul tarixlərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) təşkilatçılığı ilə Şəki şəhərində "Ulu öndər: dəyərlərimizin xilaskarı" mövzusunda seminar keçirilir. Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə təşkil olunan tədbirdə Balakən, Zaqatala, Qax və Şəki rayonlarından 60 gənc iştirak edir.

Seminarın açılışında Mənəvi Dəyərlərin Təbliği Fondunun şöbə müdiri Rəşid Paşalı, Şəki Şəhər İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Sadiq Yusifov, Sumqayıt Dövlət Universitetinin müəllimi, şərqşünas Əli Rzazadə, AMEA Şəki Regional Elmi Mərkəzi Tarixi irs və etnoqrafiya şöbəsinin müdiri Rahim Həsənov və başqaları çıxış ediblər.

Seminar çərçivəsində mövzu üzrə mühazirə və diskussiyalar, fondun dəstəyi ilə hazırlanmış "Heydər Əliyev və azərbaycançılıq", "Dəyərlərimizin dastanı" filmlərinin nümayişi, şəhər ərazisindəki tarixi-mədəni abidələri ziyarət edilməsi, "Dəyərlərimizi öyrənək!" adlı intellektual yarış və digər tədbirlər nəzərdə tutulub.

# YARAT yerli rejissorlar üçün qısa filmlər festivalı təşkil edəcək

YARAT Müasir İncəsənət Mərkəzi öz qısametrajlı bədii ekran əsərlərini nümayiş etdirmək istəyən, yeni fəaliyyətə başlamış və ya karyeralarının inkişaf mərhələsində olan Azərbaycan kinorejissorları üçün festival (YARAT Shorts) keçirəcək.




YARAT-dan bildirilib ki, layihənin məqsədi Azərbaycan, Gürcüstan və Böyük Britaniyadan olan gənc istedadlar üçün platforma yaratmaq, yerli kinorejissorların filmlərinin geniş auditoriya arasında tanınmasını təmin etməkdir.

Layihə YARAT məkanlarında açıq havada və ya qapalı meydançalarda film nümayişləri, habelə beynəlxalq səviyyədə tanınmış rejissorlar, ssenaristlər və aktyorların iştirakı ilə seminarlar, müzakirələr daxil olmaqla, silsilə tədbirlər proqramı vasitəsilə həyata keçiriləcək. Bu il festivala "Qadınlar və qadınların cəmiyyətdəki rolu", "Tənhalıq və özününkəşaf", "Yaddaş və mental landşaftlar" mövzularına toxunan, yaxud müəyyən dərəcədə bu mövzuları əhatə edən qısa filmlər qəbul olunur.

İştirak etmək istəyənlər filmlərini avqustun 20-dək e-poçtla info@yarat.az ünvanına təqdim edə bilərlər.

Seçilmiş filmlər sentyabrın ilk həftəsində nümayiş olunacaq.

Festivala Azərbaycan mənşəli və ya əsilli kinematoqrafçılarının birgə prodüser, rejissor və ya ssenari işi olan, ümumi müddəti 30 dəqiqədən az olan (yekun titrlər daxil olmaqla) istənilən film və ya video layihəsi ilə müraciət etmək mümkündür. Buraya ssenari əsasında hazırlanmış və ya improvizasiya xarakterli fantastika, eksperimental film, video və animasiya daxildir.

Qısametrajlı filmlərin festivalda iştirak hüququna təsir edən xüsusi tələblər və ya məhdudiyyətlər yoxdur. Filmlər daha əvvəl festivallarda və ya digər ictimai sərgilərdə nümayiş etdirilmiş, televiziya kanalları və ya internetdə, yaxud digər yayım platformaları üzərindən yayımlanmış ola bilər.

# Daşaltı kəndində turizm obyektləri də yaradılacaq

## Kəndə 220 ailənin köçürülməsi planlaşdırılır



Xəbər verildiyi kimi, Prezident İlham Əliyev iyulun 21-də Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub, burada özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov görüləcək işlər barədə məlumat verib. Bildirilib ki, Şuşa şəhəri üçün strateji əhəmiyyət daşıyan Daşaltı kəndinin bərpası prosesində burada məskunlaşacaq əhali üçün rahat yaşayış mühitinin yaradılması, sakinlərin məşğulluq sahələri və istirahət əraziləri ilə təmin edilməsi prioritetlər arasındadır. Təqdim olunan konsepsiya ərazinin təbii landşaftını qorumaqla Daşaltı kəndinin müasir tələblərə cavab verən yenilənəcək simasını nümayiş etdirir. Kənddə ictimai və yaşayış mərkəzlərinin, mədəniyyət və təhsil ocaqlarının qurulması, sosial və ictimai obyektlərin inşası, turizm sahələrinin yaradılması, nəqliyyat və kommunikasiya xətlərinin çəkilməsi nəzərdə tutulur.

Qeyd olunub ki, görüləcək işlər 65 hektara yaxın ərazini əhatə edir. Buraya 220 ailənin köçürülməsi planlaşdırılır. Sakinlərin yaşayışı üçün ümumilikdə 228 ev – ikimərtəbəli çoxmənzilli 9 bina, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) 66 ev və 153 ikimərtəbəli fərdi ev tikiləcək. Kənddə məscid, Bayraq meydanı, informasiya mərkəzi, qonaq evi, xalq sənətkarlığı emalatxanaları, ictimai-iaşə və ticarət obyektləri, sərgi salonu, uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, poçt şöbəsi, klub-icma mərkəzi, hotel və istirahət mərkəzi, turizm zonasının yaradılması planlaşdırılır.

İkimərtəbəli bloklaşdırılmış evlər konsepsiyası kənd ərazisində şəhərin praktikliyini təmin etmək məqsədi daşıyır. Bir-birindən ortaq divarla ayrılan üçotaqlı və dördotaqlı yaşayış blokları optimal quruluşuna görə az sahədə bir neçə ailənin yaşamasına imkan yaradır və eyni zamanda onların hər birini həyət və terras ilə təmin edir. Həmçinin azmərtəbəli çoxmənzilli tikililər ərazidə yüksək sıxlıq yaratmamaqla əhalini kiçik sahədə yerləşdirmək imkanı verdiyinə görə kəndin planlaşdırılmasında optimal həll hesab olunur. Binaların ətrafında sakinlər üçün ümumi istirahət sahələri, yaşıllıqlar, avtomobil dayanacaqları nəzərdə tutulub.

Qeyd edilib ki, Daşaltı kəndində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin və turizm obyektlərinin tikintisi "PMD Group" MMC tərəfindən yerinə yetirilir. Kənddə 2,4 hektar ərazidə kənd üslubunda hotel və istirahət mərkəzi tikiləcək. 10 binadan – ümumilikdə 48 nömrədən ibarət olacaq hotel kompleksində restoran, əyləncə və idman mərkəzləri, uşaqlar üçün oyun meydançası, istirahət parkı yaradılacaq.

# Uşaq İncəsənət Festivalında final üçün seçimlər

## Mil-Muğan RMİ üzrə mərhələ başa çatıb

*əvvəli səh. 1-də*



Mil-Muğan RMİ-nin əhatə etdiyi Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları üzrə festivalın II mərhələsinə yekun vurulub.

Region üzrə 3-18 iyul tarixləri ərzində gerçəkləşən festivalın II mərhələsində fərdi olaraq 15 nominasiyada 403 nəfər, kollektiv olaraq 2 nominasiyada 5 kollektiv iştirak edib.

Rəssamlıq, dekorativ-tətbiqi sənət və rəqəmsal incəsənət nominasiyaları Sabirabad rayon Heydər Əliyev Mərkəzində, piano ifaçılığı, klassik nəfəs alətləri ifaçılığı, xalq çalğı alətləri ifaçılığı, akademik vokal, estrada oxuma, xanəndəlik sənəti, aşıq sənəti, aktyorluq, bədii qiraət, hekayəçilik, solo milli rəqs, eyni zamanda xor və milli rəqs ansamblı nominasiyaları isə rayon Mədəniyyət Mərkəzində təşkil olunub.

### Festival iştirakçıları üçün ekskursiyalar

Uşaq İncəsənət Festivalının region mərhələsində uğur qazanmış istedadlı uşaqlar üçün Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsi tərəfindən Şəkinin "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən muzey müəssisələrinə ekskursiya təşkil edilib.

Ekskursiya zamanı uşaqlar Xan sarayı, Xalq Tətbiqi Sənəti Muzeyi və Şəki Dövlət Rəsm Qalereyası ilə tanış olublar.

***



Oğuz rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə UİF-nin birinci mərhələsində rayon üzrə uğur qazanmış uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə "Oğuzlu istedadlar" adlı görüş keçirilib.

Əvvəlcə Ulu öndər Heydər Əliyevin abidəsi ziyarət olunub. Daha sonra görüş iştirakçıları rayon Tarix-Diyarşünaslıq Muzeyinə baş çəkiblər.

Sonda uşaqlar Heydər Əliyev Mərkəzində Ulu öndərin həyat və siyasi fəaliyyətindən bəhs edən filmi izləyiblər.

# Şuşada xəstəxana və orta məktəb binalarının inşası davam edir

Prezident İlham Əliyev iyulun 21-də Şuşa şəhərində 90 çarpayılıq Şuşa şəhər xəstəxanasının və 1 nömrəli tam orta məktəbin binalarında tikinti işlərinin gedişi ilə tanış olub.



Məlumat verilib ki, 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxana binasının tikinti işlərinə bu ilin yanvarında başlanılıb. Xəstəxana binası 4-ü dördmərtəbəli, 2-si birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. Binanın zirzəmi hissəsindən stasionar tibbi xidmət və sığınacaq kimi istifadə olunacaq, zərurət yarandıqda hərbi hospital kimi fəaliyyət göstərəcək. Stasionar xidmət sahəsində qəbul, terapiya, pediatriya, cərrahiyyə, doğuş, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya–reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək.

Şuşa şəhər 1 nömrəli tam orta məktəbinin binasında tədrisin təşkili üçün hər cür şərait yaradılır. 960 şagird yerlik üçmərtəbəli binada 40 sinif otağı, ixtisaslaşmış fənn otaqları, STEAM mərkəzi, kitabxana, rəssamlıq və musiqi kabinetləri, akt və idman zalları, tibb otağı, yeməkxana və s. olacaq. Məktəb üçün ayrılan bir hektar ərazidə futbol meydançası, fərdi qazanxana, su hovuzu və digər zəruri yardımçı binaların inşası da yekunlaşıb.

# Mətbuat cəmiyyətin güzgüsüdür





İyulun 22-də Azərbaycan milli mətbuatının əsasının qoyulmasının 148 yaşı tamam oldu. Milli Mətbuat Günü – media işçilərinin peşə bayramı münasibətilə bölgələrdə də müxtəlif tədbirlər keçirilib.

Şirvan şəhər Mərkəzi Kitabxanasının əməkdaşları Milli Mətbuat Günü münasibətilə şəhərdəki Əlillərin Reabilitasiya Mərkəzində fiziki məhdudiyyətli insanlar üçün kitab sərgisi təşkil edib. Sərgidə mətbuatımızın tarixindən, bu sahəyə göstərilən dövlət qayğısından bəhs edən kitablar nümayiş olunub.

Salyan Tarix-Diyarşünaslıq Muzeyi və rayon Mədəniyyət Mərkəzinin 1, 2, 4 nömrəli şəhər, Ərəbqardaşbəyli, Beştalı kənd klubları, həmçinin Kürqaraqaşlı kənd Diyarşünaslıq evinin əməkdaşları rayonun mətbuat orqanı olan "Qələbə" qəzetinin yaradıcı heyəti ilə görüşüb. Görüşdən sonra muzeyin fondunda qorunan qəzetin ilk nüsxələrindən ibarət sərgiyə baxış olub. Tədbir görkəmli ədib, jurnalist Əli bəy Hüseynzadənin abidəsinin ziyarət olunması ilə başa çatıb.

Salyan rayon Mədəniyyət Mərkəzinin Sarvan kənd Folklor evində keçirilən tədbirdə Həsən bəy Zərdabi və "Əkinçi" qəzeti haqqında danışılıb.

***









İmişli rayon MKS-nin 17 saylı Əliqulular kənd kitabxana filialı "Mətbuatımızın tarixi" başlığı altında dəyirmi masa təşkil edib. Çıxışlarda milli mətbuatımızın tarixindən, H.Zərdabinin maarifçilik fəaliyyətindən söz açılıb.

***

Quba rayon MKS-nin Mərkəzi Kitabxanasında keçirilən tədbirdə qeyd edilib ki, Ümummilli lideri Heydər Əliyev Azərbaycanda peşəkar mətbuatın himayədarı olub, bu sahəyə diqqət və qayğı göstərib. Tədbirin sonunda "Cəmiyyətin güzgüsü – milli mətbuatımız" adlı sərgi nümayiş olunub.

***

Lənkəran şəhər Heydər Əliyev Mərkəzində Azərbaycan Yazıçılar Birliyi ilə birgə Milli Mətbuat Günü münasibətilə tədbir keçirilib. Çıxışlarda Azərbaycan milli mətbuatının keçdiyi yoldan söz açılıb. Qeyd edilib ki, Ulu öndər Heydər Əliyevin milli mətbuata göstərdiyi diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sonda Milli Mətbuat Günü ilə bağlı film nümayiş olunub.

YAP Astara rayon təşkilatı, rayon Heydər Əliyev Mərkəzi, Astara Dövlət Rəsm Qalereyası və Astara şəhər C.Babayev adına 3 saylı tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Mətbuat cəmiyyətin güzgüsüdür" mövzusunda tədbir keçirilib. Tədbirdə Astara Dövlət Rəsm Qalereyasında fəaliyyət göstərən rəssamlıq dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgi nümayiş etdirilib.

Masallı Tarix-Diyarşünaslıq Muzeyində rayon MKS-nin Mərkəzi Kitabxanası və Heydər Əliyev Mərkəzi ilə birgə Ulu öndərin Azərbaycan mətbuatının inkişafına göstərdiyi qayğıya həsr olunan tədbir keçirilib. Çıxışlarda milli mətbuatımızın keçdiyi yola nəzər salınıb, Azərbaycanda peşəkar mətbuatın formalaşması, söz və mətbuat azadlığının təmin edilməsində Ulu öndərin rolundan danışılıb.

***

Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı "Azərbaycan mətbuatının keçdiyi zəngin və şərəfli inkişaf yolu" başlığı altında tədbir təşkil edib. Çıxışlarda "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatının dövrün mütərəqqi ideyalarını əks etdirməsindən, xalqımızın maarifləndirməsindən, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamasından söhbət açılıb. Sonda tədbir iştirakçıları Milli Mətbuat Gününə həsr olunmuş videoçarxı izləyiblər.

***

Zərdab rayon MKS-nin Mərkəzi Kitabxanasında "Həsən bəy Zərdabinin maarifçilik fəaliyyəti" adlı dəyirmi masa təşkil olunub. Tədbirdə milli mətbuatımızın yaranma tarixi haqqında məlumat verilib. Sonda tədbir iştirakçıları Milli Mətbuat Günü ilə bağlı təşkil olunmuş sərgiyə baxıblar.

Rayondakı Həsən bəy Zərdabi Muzeyi, rayon Mədəniyyət Mərkəzi və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı rayon komitəsinin birgə təşkilatçılığı ilə tədbir keçirilib. "Həsən bəy Zərdabi və Azərbaycan mətbuatı" adlı tədbirdə qeyd edilib ki, "Əkinçi" qəzetinin ortaya qoyduğu ideallar bu gün üçün də aktuallığını qoruyub saxlayır.

Xalq şairi Rəsul Rzanın Göyçaydakı ev-muzeyində "Heydər Əliyev və Azərbaycan mətbuatı" mövzusunda dəyirmi masa təşkil olunub. "Göyçay" qəzetinin redaktoru Adil Məmməd milli mətbuatın yaranma tarixindən danışıb. Qeyd edib ki, cəmi 56 nömrəsi işıq üzü görsə də, "Əkinçi" qəzeti Azərbaycan mətbuatında mayak rolunu oynayıb. Digər çıxış edənlər mətbuatımızın bu günündən və media işçilərinə dövlət qayğısından söz açıblar.

***

Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyində olan müəssisələrdə də Milli Mətbuat Gününə həsr olunmuş silsilə tədbirlər keçirilib.

**Hazırladı: N.Məmmədli**

# Kitabxanada İsi Məlikzadənin "Quyu" povesti müzakirə olunub



İsmayıllı rayon Mərkəzi Kitabxanasında "Mütaliəçilər" kitab klubu üzvlərinin iştirakı ilə görkəmli yazıçı İsi Məlikzadənin (1934-1995) "Quyu" povestinin müzakirəsi keçirilib. Əvvəlcə ədibin həyat və yaradıcılığı haqqında məlumat verilib. Sonra povestin qəhrəmanları müzakirə olunub, əsərin ideya-bədii xüsusiyyətləri, müəllifin qayəsi barədə söz açılıb.

Qeyd olunub ki, povestdə İsi Məlikzadə 70-ci illər Azərbaycan kəndinin mənəvi-əxlaq mənzərəsini əks etdirib. "Quyu" sözü burada rəmzi məna daşıyır.

Əsərdə Umud adlı oğlan aşpazlığı "kişi işi" hesab etməyib işdən çıxır. Kəndin kolxoz sədri Xalıq Umudu və dədəsi Məcid kişini evinə çağırıb quyu qazmağı xahiş edir. Bir gün Məcid kişi Umuda eyvana çıxıb su gətirməyi xahiş edəndə Umud gəlib xoşagəlməz bir mənzərəyə şahid olur. Bu sirrin üstü açılmasın deyə Umudun həyatında dəyişiklər başlayır...

# "Vətən bağı" – bir şəhid, bir ağac

2021-ci ilin sentyabrında Tərtər rayon Şıxarx qəsəbəsində "Vətən bağı" şəhidlər parkı yaradılıb. Bağdakı ağaclara şəhidlərimizin şəkli, adı, ata adı və soyadı olan, QR kodlu məlumat lövhələri yerləşdirilib. QR kod oxudulan zaman həmin şəhid haqqında müfəssəl məlumat əldə etmək mümkün olacaq.

"Vətən bağı" şəhidlər parkı Tərtər Rayon İcra Hakimiyyətinin dəstəyi və "Vətən bağı" Sosial Təşəbbüslər İctimai Birliyinin təşkilatçılığı ilə salınıb. Bağda 4000-dək meyvə ağacı əkilib, damcı suvarma sistemi qurulub.

Bağda artıq 2200 şəhid haqqında QR məlumat lövhələri yerləşdirilib. Burada Birinci və İkinci Qarabağ müharibələrinin Tərtər şəhidləri haqqında da məlumat tabloları yer alıb.

# “Muğamat var olan yerdə”

## BMM-in solistləri Biləsuvarda müvəqqəti məskunlaşan cəbrayıllılar qarşısında çıxış ediblər

Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Mədəniyyət Nazirliyi tərəfindən iyul ayı üçün musiqi kollektivlərinin regionlara qastrol səfərləri davam edir.





Bu çərçivədə Beynəlxalq Muğam Mərkəzinin (BMM) solistləri iyulun 22-də Biləsuvar rayonunda yerləşən Cəbrayıl rayon Mədəniyyət evində “Muğamat var olan yerdə” adlı konsert proqramı ilə çıxış ediblər.

Biləsuvarda müvəqqəti məskunlaşan Cəbrayıl rayon sakinləri üçün təşkil olunan konsertdə Əməkdar artistlər İlkin Əhmədov, Ehtiram Hüseynov, xanəndələr Kamilə Nəbiyeva və Günay İmamverdiyeva muğam və təsniflər, xalq mahnılarımızı səsləndiriblər.

4 saylı Cəbrayıl qəsəbə klubunda reallaşan konsertdə xanəndələri Rəşad İbrahimov (tar), Əməkdar artistlər Toğrul Əsədullayev (kamança), Kamran Kərimov (nağara), Çinarə Heydərova (qanun) müşayiət ediblər. Bütün ifalar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Sakinlər incəsənət layihəsinə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

BMM-in direktoru Əməkdar artist Sahib Paşazadə Mədəniyyət Nazirliyi tərəfindən təşkil edilən qastrol səfərlərinin regionlarda yaşayan əhalinin asudə vaxtının səmərəli təşkili baxımından əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, bu qəbildən konsertlər yerlərdə mədəni mühitin canlanmasına da bir töhfədir.

**Lalə Azəri**

# ATXİ teatrdan yazanları təltif edib

Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) Milli Mətbuat Günü münasibətilə tədbir keçirilib.

İyulun 21-də mədəniyyət xadimləri, media nümayəndələri və ittifaqın əməkdaşlarının iştirak etdiyi tədbirdə çıxış edən ATXİ-nin sədr müavini Xalq artisti Hacı İsmayılov 150 illik yubiley ilini yaşayan Azərbaycan peşəkar milli teatrı üçün bu mövsümün də məhsuldar olduğunu deyib. O, il ərzində ittifaq tərəfindən 30-dan artıq tədbirin reallaşdırıldığını diqqətə çatdıraraq sentyabr ayından yubiley silsiləsinin davam edəcəyini bildirib.

Hacı İsmayılov bu il yaranmasının 148-ci ildönümü tamam olan Azərbaycan milli mətbuatının da zəngin inkişaf yolu keçdiyini vurğulayıb, 22 iyul – Milli Mətbuat Günü münasibətilə media nümayəndələrini təbrik edib, teatrdan, incəsənətdən yazan müəlliflərə təşəkkürünü bildirib.

Sonra teatr sənətinin inkişafındakı xidmətlərinə görə bu il 75 illik yubileyini qeyd edən Xalq rəssamı Nazim Bəykişiyev, Bakı Uşaq və Gənclər Teatrının 70 yaşlı aktrisası Sovqat Səmədova, eləcə də 30 illiyi münasibətilə ittifaqın beynəlxalq məsələlər üzrə katibi Lalə Məmmədova ATXİ-nin fəxri fərmanları ilə təltif olundular.

Ardınca tədbirin əsas səbəbkarlarına – ittifaq ilə sıx əməkdaşlıq edən KİV nümayəndələrinə ATXİ-nin fəxri fərmanları təqdim edilib. Təltif olunanlar arasında “Mədəniyyət” qəzetinin əməkdaşı da var.

# “Mərmər soyuğu” Serbiyada mükafata layiq görülüb

Rejissor Asif Rüstəmovun “Mərmər soyuğu” filmi 15-21 iyul tarixlərində Serbiyada keçirilən 30-cu Paliç Avropa Film Festivalında “Münsiflər heyətinin xüsusi mükafatı”na layiq görülüb.




Festivalın münsifləri ekran əsərini cəmiyyətdə yaşanan bir nəslin travmasını əks etdirən film kimi dəyərləndiriblər.

Qeyd edək ki, “Azərbaycanfilm” kinostudiyası, İctimai Televiziya, Bakı Media Mərkəzi və Fransanın “Arizona Films” şirkətlərinin birgə istehsalı olan “Mərmər soyuğu” filmi Mədəniyyət Nazirliyinin dəstəyi ilə ərsəyə gəlib.

Filmin baş prodüseri Arzu Əliyeva, ssenari müəllifləri Asif Rüstəmov və Roelof Jan Minneboo, quruluşçu operatorları Oktay Namazov və Adil Abbasov, prodüserləri Fariz Əhmədov, Balakişi Qasımov, Orman Əliyev və Guillaume de Seille, kreativ prodüseri İradə Bağırzadə, quruluşçu rəssamı Rafiq Nəsirovdur. Əsas rollarda Xalq artisti Qurban İsmayılov, aktyorlar Elşən Əsgərov və Natəvan Abbaslı çəkiliblər.

# Naxçıvan Dövlət Filarmoniyasına yeni status verilib

Naxçıvan Dövlət Filarmoniyasına “muxtar respublika” statusu verilib. Bu münasibətlə iyulun 24-də təqdimat mərasimi keçirilib.

Naxçıvan MR Nazirlər Kabineti Aparatının rəhbəri Aləm Bağırov Naxçıvan Dövlət Filarmoniyasının yaranma tarixi haqqında məlumat verib. Qeyd olunub ki, 1983-cü ildə fəaliyyətə başlayan Naxçıvan filarmoniyası professional musiqi kollektivi kimi formalaşıb. Filarmoniyanın peşəkar musiqi sənətinin yaşadılmasında xidmətləri və uğurlu fəaliyyəti nəzərə alınaraq ona “muxtar respublika” statusunun verilməsi qərara alınıb.

Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin muxtar respublikada səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin təşəbbüsü ilə yeni statuslu müəssisədə əməkdaşların əməkhaqqılarına da yenidən baxılacaq.

Qeyd olunub ki, Naxçıvan Dövlət Filarmoniyası bundan sonrakı fəaliyyəti ilə əhaliyə yüksək səviyyədə mədəni xidmət göstərməli, müasir səhnə sənətinin inkişafını təmin edən yaradıcılıq axtarışları aparmalı, milli mədəniyyətin və incəsənətin inkişafında xüsusi rola malik olmalıdır.

NMR mədəniyyət nazirinin müavini Həsən Kərimov və filarmoniyanın əməkdaşları atılan bu addımı yüksək qiymətləndirib, minnətdarlıqlarını bildiriblər.

# Akademik Musiqili Teatr mövsümə yekun vurub

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı mövsümə “Sən elə bir zirvəsən” adlı tamaşa ilə yekun vurub.



Səhnə əsəri Ulu öndər Heydər Əliyevin 100, Azərbaycan peşəkar milli teatrının 150 illiyi münasibətilə hazırlanıb.

Tamaşanın bədii rəhbəri teatrın direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, ssenari müəllifi Əməkdar artist Mübariz Həmidov, quruluşçu rejissoru Cavid İmamverdiyev, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, xormeysteri Əməkdar artist Vaqif Məstanov, baletmeysteri Əməkdar artist Emin Əliyev, rejissor assistenti Afər Tağıyevadır.

Musiqili tarixi-esse kimi hazırlanan səhnə əsərində Əməkdar artistlər Fərid Əliyev, Səidə Şərifəliyeva, Prezident mükafatçıları Mehriban Zaliyeva, Səmədzadə Xasiyev, aktyorlar Aydan Həsənova, Hidayət Əliyev, Şaban Cəfərov, Türkel Tariqpeyma, Emin Zeynallı, həmçinin teatrın xor və balet heyətinin üzvləri iştirak edirlər.

Xatırladaq ki, teatrın yaradıcı heyəti bu tamaşa ilə Gəncə və Şəki şəhərlərində də çıxış edib.

# Bakıdakı Rus Evi də mövsümü bağlayıb

Bakıdakı Rus Evi (Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi) iyulun 21-də sənət mövsümünə yekun vurub.

“Mövsümün bağlanışı” adlı konsertin proqramına həm peşəkar, həm də həvəskar musiqiçilərin ifasında klassik musiqi əsərləri, caz kompozisiyaları, müasir estrada nümunələri, xalq rəqsləri və mahnıları daxil edilib.

Konsertdə Əməkdar artist Anton Ferştandt, Akademik Musiqili Teatrın solisti Yuliya Heydərova, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin solistləri Leyla Kərimova və Renata Əbubəkirova, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının konsertmeysteri Dilarə Kərimova, M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının xor kapellasının artistləri Fərhad Ələkbərov və Əliyar Əliyev, Akademik Opera və Balet Teatrının xorunun solisti Ruslan Persan, Fatimə Nəzirlinin rəhbərliyi ilə “Xarıbülbül” vokal-xoreoqrafik ansamblı və başqaları çıxış ediblər.

Tədbiri BMA-nın baş müəllimi fəlsəfə üzrə sənətşünaslıq doktoru Alyona İnyakina aparıb.



***

Konsertlər mövsümü başa çatsa da, Bakıdakı Rus Evində mədəniyyət tədbirləri davam edir. İyulun 22-də burada görkəmli rus şairi Vladimir Mayakovskinin (1893-1930) 130 illiyi münasibətilə yaradıcılıq gecəsi keçirilib.

“Poeziya klubu”nun tədbirində gənc şairlər Günatay Hüseynova, Fidan Nəzərova, Türkan Bayramzadə, Zarema Manafova, Renata və Vadim Aprelkov çıxış ediblər. BMA-nın məzunu Ləman Qulamova və gənc pianoçu Tağı Rzanın ifasında musiqi nömrələri səsləndirilib.

Qeyd edək ki, Vladimir Mayakovski 1926-cı ilin fevralında və 1927-ci ilin dekabrında Bakıda olub, hər iki səfərinin təəssüratı ilə bağlı şeirlər yazıb.

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (50)

### 1994-cü il 28 dekabr

Prezident Heydər Əliyev görkəmli yazıçı-publisist Cəlil Məmmədquluzadənin Bakıdakı Ev-Muzeyinin açılış mərasimində çıxış edib.

*“Biz 70-ci illərin əvvəllərində xalqımızın ayrı-ayrı böyük şəxsiyyətlərinin ev-muzeylərini yaratmağa başladıq və ilk belə muzey böyük bəstəkarımız Üzeyir Hacıbəyovun Ev-Muzeyi oldu. 76-cı ildə böyük şairimiz Səməd Vurğunun Ev-Muzeyi yarandı. Ondan sonra da belə muzeylərin yaradılması haqqında mən göstərişlər vermişdim. Şübhəsiz ki, həmin muzeylərin yaranması üçün bu evlərdə yaşayan adamlar başqa yerlərə köçürülməli idi. Bu işləri biz o vaxt görürdük. İndi siz deyirsiniz ki, 82-ci ilin əvvəlində artıq bura boşalmışdı. Binanı təmir etmək, bu ekspozisiyaları toplamaq üçün bəlkə 5-6 ay lazım idi. Ancaq üstündən 12 il keçdi...*

*Moskvada yaşayan vaxt əgər mənə xəbər gəlsəydi ki, bu muzey açılıb, çox sevinərdim. Sonra mən gəldim Azərbaycana, Naxçıvanda yaşayan vaxt bununla maraqlandım. Dedilər: yox, açılmadı. Nəhayət, Bakıya işə qayıdan kimi yenə də bu məsələ ilə maraqlandım və lazımi tədbirlər görmək barədə göstərişlər verdim...*

*İndi görürsünüz, açıldı ki. Yəni nə qədər çətinliklər də olsa, belə bir muzeyi açmaq çətin bir şey deyildir... Burada təkcə Cəlil Məmmədquluzadənin şəxsiyyətinə yox, ümumiyyətlə, mədəniyyətimizə, ədəbiyyatımıza olan münasibət özünü göstərir. Hər bir belə mədəniyyət ocağının, muzeyin yaranması bir tərəfdən mədəniyyətimizi, mədəni irsimizi, tariximizi, keçmişimizi, köklərimizi təbliğ edir. İkinci tərəfdən də bu şəxslərin, bu şəxsiyyətlərin yaradıcılığını təbliğ edir və bunlar böyük tərbiyə ocağıdır, mədəniyyət ocağıdır...”.*

Heydər Əliyev muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazıb: *“Azərbaycan xalqının böyük yazıçısı, maarifçisi, ictimai xadimi Cəlil Məmmədquluzadənin Ev-Muzeyi açılır. Bakı şəhərində yeni mədəniyyət ocağı, Mirzə Cəlil ocağı fəaliyyətə başlayır. Bu, C.Məmmədquluzadənin yaradıcılığına, onun ədəbi, mədəni irsinə, onun xalqımızın tarixində əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzidir...”.*

***

Heydər Əliyev həmin gün Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) Cəlil Məmmədquluzadənin 125 illiyinə həsr edilmiş təntənəli yığıncaqda da çıxış edib.

*“...Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz “Molla Nəsrəddin” jurnalının və Mirzə Cəlil fəaliyyətinin rolu misilsizdir...*

*...Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik.*

*Cəlil Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. “Anamın kitabı” əsəri Azərbaycan üçün çox dahiyanə bir əsərdir. Çünki bizim xalqımız, respublikamız Şərqin və Qərbin, Şimalın və Cənubun qovuşuğundadır. Əsrlər boyu ayrı-ayrı istiqamətlərdən xalqımıza təsirlər olmuşdur. Ancaq xalqımızın dahi simaları Azərbaycan dilini daim yaşadıb, Azərbaycanın milliliyini yaşadıb, milli şüuru yaşadıb, milli məfkurəni yaşadıblar... “Anamın kitabı”nda yazılan, təsvir olunan meyillər bu gün də cəmiyyətimizdə özünü büruzə verir.*

*“Ölülər” əsəri haqqında. Mən tam cəsarətlə deyə bilərəm ki, dünya ədəbiyyatında buna bərabər ikinci əsər tapmaq mümkün deyildir. Bu əsər Cəlil Məmmədquluzadənin həm nə qədər böyük filosof olduğunu göstərir, həm də onun yalnız özünəməxsus yaradıcılığını, özünəməxsus fitri istedadını əks etdirir. Mirzə Cəlil bu əsəri yaradarkən heç də dinə müxalif çıxmayıb, əksinə, bu əsərlə islam dininin xalqımız üçün nə qədər böyük mənəvi dəyər olduğunu sübut etməyə çalışıb. Eyni zamanda o, dini təhrif edənləri, dindən istifadə edib fırıldaqçılıqla məşğul olanları ifşa edib, tənqid atəşinə tutubdur.*

*Biz Cəlil Məmmədquluzadənin “Ölülər” əsərindən bu gün də bəhrələnməliyik. Çünki bu gün də dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyil. Təəssüf ki, mənəviyyatda çatışmazlıq, mənəviyyatda gerilik bizi bu gün də sıxır...”.*

### 1994-cü il 30 dekabr

Heydər Əliyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Azərbaycan xalqına təbrik müraciəti ünvanlayıb.

### 1994-cü il 31 dekabr

Heydər Əliyev Yeni il münasibətilə Azərbaycan xalqını təbrik edib.

### 1995-ci il 6 yanvar

Heydər Əliyev Dağıstanda (Rusiya Federasiyası) yaşayan azərbaycanlıların nümayəndələrini qəbul edib.

### 1995-ci il 7 yanvar

Prezident Heydər Əliyev Milad bayramı münasibətilə Bakıdakı Kamera musiqisi salonunda keçirilən mərasimdə iştirak edib.

**Hazırladı: Vüqar Orxan**

***(davamı var)***

№55 (2024)
26 iyul 2023
www.medeniyyet.az

Əkbər Qardaşbəyov – 100

# Yalnız səhnədə fərqlənmək istəyirdi...

Həyatda heç kimdən fərqlənmək istəməsə də, səhnədə çoxlarından fərqlənirdi. Özünəməxsusluğunu səhnədə, sənətdə göstərmək istəyirdi. Canlandırdığı müxtəlif xarakterli obrazlarla tamaşaçıların qəlbində iz qoydu.



Bu il 140 yaşını qeyd edən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının parlaq səhnə xadimlərindən olmuş Xalq artisti Əkbər Qardaşbəyovu 100 illik yubileyi münasibətilə yada salırıq.

Əkbər Hacı oğlu Qardaşbəyov 1923-cü ilin 15 martında Naxçıvan şəhərində anadan olub. Orta məktəb illərindən teatra maraq göstərib, aktyor olmaq arzusu ilə dram dərnəklərində çıxış edib. Orta məktəbi qurtardıqdan sonra Naxçıvan teatrına gəlib və taleyini bu sənətə, bu səhnəyə bağlayıb. Ömrünün sonunadək doğma teatrda fəaliyyət göstərib.

Ə.Qardaşbəyov ilk olaraq C.Cabbarlının "Aydın" pyesinin tamaşasında Ləzgi Qurban rolunu canlandırıb. İlk müvəffəqiyyət onun başını gicəlləndirmir. Bir onu düşünür ki, tamaşaçının odlu, səmimi alqışlarını qazanmaq istəyirsə, çox çalışmalı, bu sənəti çox sevməlisən. O, həqiqətən də, səhnəni çox sevdi, bir-birindən dolğun obrazlar silsiləsi yaratdı.

Adil Babayevin "Yarımçıq şəkil" tarixi dramını tamaşaya qoyan rejissor Baxşı Qələndərli əsərin tərcümeyi-halının təfərrüatına uymayıb, onu bir sənət fədaisi kimi təqdim etmişdi. Rəssam Bəhruzun (realist rəssam Bəhruz Kəngərli) tamaşada mürəkkəb taleyini, ziddiyyətli daxili aləmini görürük. Gürcü qızı Eterinin ona məhəbbəti, Bəhruzun həyəcan və iztirabları tufanlı illərin hadisələri ilə təkcə təbiət aşiqi olan rəssam kimi deyil, həm də mətin bir vətəndaş kimi diqqəti cəlb edir. Bəhruz Eterinin eşqi ilə neçə-neçə təbiət tablosu yaradır. Ona elə gəlir ki, bu ilhamı, bu fırçanı Eterinin bulaq kimi təmiz məhəbbətindən alıb. Lakin amansız xəstəlik rəssamın bu ülvi məhəbbətini nakam qoyur. Sevimli Eterinin şəkli yarımçıq qalır... Ə.Qardaşbəyovun yaratdığı Bəhruz obrazı sənətsevərlər tərəfindən maraqla qarşılanır. Teatrşünas-tənqidçilər C.Səfərov, C.Vəzirov onun ifasını yüksək qiymətləndirmişlər.

Hüseyn Cavid, Cəfər Cabbarlı dramaturgiyası aktyor üçün, sözün əsl mənasında, böyük sənət məktəbi olub. Vaxtilə Cavidin "Şeyx Sənan" mənzum faciəsində Şeyx Hadini oynayan aktyor illər sonra bu səhnədə məhəbbəti bütün dinlərdən uca tutan Şeyx Sənan obrazını yaradıb. Obrazın fəlsəfi və romantik çalarını təbii ifa yozumları ilə rəsm edən aktyor tamaşaçılar tərəfindən sevilib. "Səyavuş" mənzum faciəsində Ə.Qardaşbəyovun yaratdığı mənfi tip – Kərşivəz obrazı da sənətsevərlərin diqqətini cəlb edib. O, Kərşivəzin xain xislətini çox təbii çalarlarla təqdim etməyi bacarıb.

Şeyx Sənan və Kərşivəz təzadlı obrazlardır. Biri sevən və sevgini ülviləşdirən, ilahiləşdirən, digəri isə sevginin qarşısını alan, ona qara yaxan, mənfur xislətli bir surət. Cavidin hər iki qəhrəmanının hiss və həyəcanlarını, arzu və qayələrini düzgün tapan Ə.Qardaşbəyov onları sevə-sevə tamaşaçı yaddaşına möhürləyib.

Aktyor C.Cabbarlının "Yaşar" pyesində Toğrul, "Nəsrəddin şah" tarixi dramında Fərhad, "Almaz"da Fuad, "Oqtay Eloğlu"da Səməd bəy, "Sevil"də Məmmədəli bəy, "Aydın"da Novruz bəy, "Solğun çiçəklər"də Molla Möhsün, Əbdül, "Od gəlini"ndə Qorxmaz, "1905-ci ildə" əsərində Baxşı obrazlarını da sevə-sevə, bütün istedadını sərf edərək canlandırıb.

Ə.Qardaşbəyovun yaratdığı bir çox obrazlar, o cümlədən S.S.Axundovun "Eşq və intiqam" faciəsində Çingiz, C.Məmmədquluzadənin "Ölülər"ində Şeyx Nəsrullah, A.Şaiqin "Vətən"in Elman, A.Saqarelinin "Xanuma" komediyasında Knyaz, S.Vurğunun "Vaqif"ində Təlxək, S.Rüstəmin "Qaçaq Nəbi"sində Baqqal Xəlil, S.Rəhmanın "Toy" komediyasında Mirzə Hüseyn, A.Ostrovskinin "Cehizsiz qız"ında Paratov kimi müxtəlif xarakterlər onun hərtərəfli istedadını aşkara çıxarıb.

"Qaçaq Nəbi" mənzum pyesinin tamaşasındakı Baqqal Xəlil epizodik obraz olsa da, o, aktyorun maraqlı oyun üslubu ilə tamaşaçı yaddaşında əbədiləşə bilib. "Vaqif" mənzum pyesindəki Təlxək obrazını aktyor 30 ildən çox tamaşaçıya sevdirə-sevdirə oynayıb. Ə.Qardaşbəyov sənət yolunda amplua nədir bilməyib. Heç kimi təqlid etmədən dramatik, bəzən komik obrazların öhdəsindən məharətlə gəlib, bir çoxlarına isə öz möhürünü vurub. Bu mənada türk yazıçısı Əziz Nesinin "Toros canavarı" tamaşasında yaratdığı Nuru Sayaner obrazı, mübaliğəsiz demək olar ki, onun yaradıcılığında yeni bir zirvə təşkil edib.

Dramaturq Kəmalə Ağayevanın xalq əfsanəsi əsasında yazdığı "Apardı sellər Saranı" adlı mənzum pyesində el atası, qeyrətli, namuslu bir ər olan Soltan baba nə qədər desən abırlı, xalqa bağlı bir adamdır. Soltan baba Saranın Xançobana olan saf məhəbbətini alqışlayır. Amma Xaqanın Saraya aşiq olmasını və zorla ərə verilməsini görəndə dəhşətə gəlir. Bu işin faciə ilə bitməsinə bir növ sevinir. Soltan baba heç cür razı olmaz ki, qızı Xaqana qismət olsun. Təki qoy Saranı sellər aparsın, vəhşi heyvanlar yesin, amma Xaqana qismət olmasın. Ə.Qardaşbəyov Soltan babanın əqidəsini, xalqa inamını, qürurunu, vüqarını əlvan boyalarla səciyyələndirir. Soltan baba Xaqanın qarşısında çox əzəmətlə, vüqarla dayanır. O, bu an qızını qurban verməyə də razıdır. Təki yadlara qismət olmasın... Saranın çaya atılması səhnəsindən sonra Soltan baba – Əkbər Qardaşbəyov nə hala düşür, necə dəhşətli hisslər keçirir. Bu hissləri də aktyor təbii və qabarıq şəkildə təqdim edir.

Sənətkarın ömrünün ahıl çağlarında yaratdığı Dudkin ("Günahsız müqəssirlər" – A.Ostrovski), İnfil ("Azərbaycan dünyam mənim" – M.Araz) və digər obrazlar öz təbii ifası ilə yaddaşlara həkk olunub. Bu obrazlardan İnfil daha çox tamaşaçılar arasında populyar olub, daha çox alqışlanmışdı. Bu da təbii idi. Cavid Poeziya teatrında tamaşaya qoyulan Məmməd Arazın "Azərbaycan dünyam mənim" pyesində İnfil daha çox diqqəti cəlb edir. Saf qəlbə malik olan, bütün ömrünü kənddə keçirən, torpağla əlləşən İnfil – Əkbər Qardaşbəyov balaları üçün, dost-tanışları, qohum-qonşu üçün səmimi və qayğıkeş bir insandır. Savadsız olsa da, dünyanın gedişatını çox gözəl duyur. Çünki böyük həyat məktəbi keçib. Bütün bunları aktyor tamaşa boyu təbii bir ifa tərzində sənətsevərlərə təqdim edir.



Ə.Qardaşbəyov komik səciyyəli və musiqili əsərlərin tamaşalarında da yadda qalmağa nail olub. Bu sırada Məstəli şah ("Müsyö Jordan və dərviş Məstəli şah" – M.F.Axundzadə), Knyaz ("Xanuma" – A.Saqareli), Ata ("Astana" – A.Dudarev), Azər, Azad ("Aydınlıq", "Əliqulu evlənir" – S.Rəhman), Mərcan bəy, Sərvər, Soltan bəy ("Ər və arvad", "Məşədi İbad", "Arşın mal alan" – Ü.Hacıbəyli), Mitoş ("Hicran" – S.Rəhman, E.Sabitoğlu), Kərbalayı Hüseynalı ("Beşmanatlıq gəlin" – M.S.Ordubadi, S.Rüstəmov), Uzun ("Toy kimindir?" – M.Əlizadə, A.Məşədibəyov), Alay ("Gözün aydın" – M.Əlizadə, F.Əmirov) və digər obrazları göstərə bilərik.

Ə.Qardaşbəyovun səhnə fəaliyyəti haqqında dövri mətbuat səhifələrində zaman-zaman yazılar dərc olunub. Mərhum teatrşünas C.Vəzirov "Şərq qapısı" qəzetində (28 avqust 1987) aktyorun yaradıcılığı haqqında yazmışdı: "Teatrdakı fəaliyyəti dövründə Əkbər Qardaşbəyov iri-xırdalı 200-dən çox obraz yaratmışdır. S.Vurğunun "Vaqif" dramındakı Təlxək obrazı aktyor tərəfindən Naxçıvan səhnəsində 700 dəfədən çox ifa olunub, özü də hansı tərəf müqabilləri ilə – Ələsgər Ələkbərov, İsmayıl Dağıstanlı, Sidqi Ruhulla, Həsənağa Salayev, İbrahim Həmzəyev, İsa Musayev kimi sənətkarlarla".

Ömrünün 50 ildən çox bir dövrünü Naxçıvan teatrının inkişafına həsr edən, bütün ömrünü klassik və müasir səpkili obrazlara maraqlı səhnə taleyi bəxş edən Əkbər Qardaşbəyovun əməyi yüksək qiymətləndirilib. Aktyor 1974-cü ildə "Əməkdar artist", 1987-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb.

Tanınmış aktyor ömrünün 79-cu baharında, 2001-ci ilin 26 martında dünyasını dəyişib.

**Əli Qəhrəmanov**
**AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent**

# Kəndirbazla ip altında söhbət

"Salam, bağışlayın, mənim Amil müəllimlə görüşüm var...". Bayaqdan əlində çəkic o yan-bu yana gedib, hərəyə bir göstəriş verən almayanaq gənc üzümə belə baxmadan tələsik cavab verib sovuşmaq istəyirdi ki, "Soyadını unutmuşam. Burada neçə Amil var ki?" deyib tələbkar ədası ilə gülümsündüm.

Bu sualımdan onsuz da səbirsiz adam təsiri bağışlayan gənc lap əsəbiləşdi. Tez "Kəndirbaz Amili deyirəm də. Sim pəhləvanı Amil" deyib dərindən nəfəs aldım.

Bu dəfə dodaqları gülmək üçün səyriyən gənc başını yuxarı qaldırıb "Düş də aşağı. Görmürsən, qonağın var" deyəndə mən də qeyri-ixtiyari başımı qaldırdım. Çox vaxt ip üstündə gördüyüm köhnə dostumla salamlaşdım. İpdə az qala yerdən də rahat gəzən Amil əlindəki iri dirəyi (balans) yerə dayaq edib endi.

"Yaxşı qurtardın" deyib nəzərləri ilə yerə dirək basdıran əli çəkiclini göstərərək "Hirsini toxmaqdan çıxır" deyib gülümsündü. Heç nə olmamış kimi "Əslində, gəlməyini gördüm, bayaqdan sizə baxırdım. İpin o başındaydım. Özüm qalxdım ki, qonağı, necə deyirsiz, məxsusi oradan salamlayım" deyib qımışdı.

"İşim budu, ip üstündə gəzmək. Sizin də sözlə oyun. Görək yarışımız necə alınır" deyə əlavə edərək şehi çoxdan çəkilən çəmənlikdə oturdu.

Hə, təqdimat üçün deyim ki, Amil Hafiz oğlu Məmmədhüseynov Qubanın Tüləkəran kəndindəndir. 1988-ci ildə doğulub. Atası da kəndirbaz olduğundan əvvəldən bu qədim xalq sənətinə maraq göstərib. Orta məktəbdən sonra Bakı Sənaye Pedaqoji Texnikumunun bədən tərbiyəsi və fiziki hazırlıq şöbəsində təhsil alıb. Hazırda Quba rayon Mədəniyyət evində klub müdiri kimi çalışsa da, əsas işi sözsüz ki, kəndirbazlıqdır.

Dünyanın bir sıra ölkələrində də maraqlı proqramlarla çıxışlar edib.

Söhbətə əsl canbazsayağı – qısa sualla başladım.

*– Dostum Amil niyə kəndirbaz oldu?*

– Vallah, gözümü açandan atamı bu sənətdə, necə deyərlər, ip üstündə gördüm. Yəqin genetik kodlar da öz sözünü dedi və mən istər-istəməz bu istiqaməti seçdim. Kəndirbazlıq siz təsəvvür etdiyinizdən də maraqlı sənətdir. Onun ayrı bir zövqü var. Hər an maraqlı, diqqət mərkəzində olursan.

*– Tamaşaçıların sizi kəndirbaz kimi tanıması ilə adi qubalı Amil arasındakı fərq nədir?*

– Elə bayaqkı söhbətin fərqi kimi. Məsələn, Amil ilə kəndirbaz Amilin fərqi (gülür). Zarafat bir yana, insanların məni sənətim ilə tanıması və sevməsi məni, bilirsiniz, necə sevindirir? Allah eləməsin, mən ata-baba sənətimi layiqincə davam etdirməyib, uğursuzluğa da düçar ola bilərdim. Amma şükür ki, sənətim, o çox sevdiyim işim məni tanıdıb, mən də bacardıqca onu yaşadıb, daha da tanıtmaqda iddialıyam. Digər tərəfdən mən sırf kəndirbazlıqla da məşğul deyiləm. İkinci işim də var. B.Səfəroğlu adına Quba rayon Mədəniyyət evində klub müdiri vəzifəsində çalışıram.

*– Özünüzü peşədə təsdiq etmisinizmi?*

– Bu sahənin də ustadları, qocaman davamçıları var. Amma özümü onlardan heç də geri hesab etmirəm. Çünki yalnız bir neçə ənənəvi nömrə, yeni nümayiş üsulu ilə məhdudlaşmıram, daim öz üzərimdə çalışıb, texniki baxımdan daha qəliz, bir az da riskli nümayişlərə can atıram. Belə görünməyimə baxmayın, kifayət qədər riski sevən, bir az da dediyini edən adamam. Məqsədimin arxasınca gedirəm.

*– Yəqin ipin əl-ayağınıza "dolandığı", peşədən soyuduğunuz vaxtlar da olub...*

– Yox, inanın, heç vaxt olmayıb. Bilmirəm niyə, amma mənə həmişə elə gəlir ki, bu işdən qopsam, kəndirbazlıqdan imtina etsəm, özümə və bu qədim peşəyə, sənətə, mən lap belə deyərdim, həyat tərzinə xəyanət eləmiş olaram.

*– Bəstəboy adam olsanız da tez-tez hamımızdan "böyük" olursunuz. Yuxarıdan, ipin üstündən necə görünürük?*



– Maraqlı (gülür). Əsas odur ki, insanlara yuxarıdan aşağı baxmıram, sağ olsunlar, onlar da mənə. Amma ən xoşuma gələn bilirsiniz nədir? İp üstündə olmazdan əvvəl və sonrakı münasibət. Bu, məni hədsiz xoşhal edir. Məsələn, milli, daha doğrusu, canbazlara xas geyimimizdə yerdə, ip ətrafında gəzib-dolaşarkən o qədər də fərqində olmurlar. O ki ipə qalxıb, onları heyrətləndirib, düşürsən, olursan başqa adam. Heyrətdən daha da böyüyən gözlər, həyəcan, sevinc və narahatlıq oxunan üzlər, durmadan səni alqışlayan əllər... və sonda "Afərin" nidaları möhtəşəm hissdir. Mən tamaşaçılarımı çox sevirəm.

*– Kəndirbazlıq, həm də gəlirli sahədir. Yerli və xarici tədbirlərə dəvətlər baxımından dedim. İpin üstündə var-gəl maddi baxımdan sizi qane edir?*

– Edir. Sözsüz ki, məşğul olduğun sənət səni həm də maddi baxımdan yaşatmalıdır. Tədbirlərə tez-tez dəvət alıram, düzdür. Amma arada elə qonorarlar təklif edirlər ki, adamın lap gülməyi gəlir. Belə olduqda proqramın müddət və nömrə sayı, məsafə fərqi qoymadan imtina edirəm. Çünki sənətə qiymət üçün ilk olaraq o işin çətinliyini anlamaq lazımdır. Pul üçün bu çox sevdiyim sənəti ucuzlaşdırmağa da ixtiyarım yoxdur.

*– Bu peşəni, bildiyim qədərilə, oğlunuza da öyrədirsiniz. Ondan başqa da şəyirdiniz varmı? Ümumən öyrətməyə maraqlısız, yoxsa hələ də öyrənməyə?*

– Öyrəndiyimi öyrənmişəm, indi isə daha çox öyrətmək, bu sənətin gələcək nəsillərə ötürülməsi, yaşamasını istəyirəm. Təəssüf ki, marağı olan uşaqlar azdır. Bacardıqca bildiklərimi oğlum Yusifəliyə öyrədirəm. Amma istəmirəm tək o bilsin, qoy, başqa balalarımız da maraqlansınlar. Onu da deyim ki, bu sənətlə lap kiçik yaşlardan məşğul olmaq lazımdır. Çox istərdim ki, çalışdığım Mədəniyyət evində bizim truppamız yaradılsın, biz bu xətlə qastrollara gedib, bu sahəni layiqincə təmsil edək.

*– Məsələnin təhlükəsi ilə yanaşı, texnikası da var. Ən çətin nömrəniz hansıdır?*

– İşin texnikasını bildikdən sonra heç biri elə də çətin deyil. Amma ayaqları ipə bağlayıb, tarazlığı saxlayaraq yerimək və bu üsulla butulkaları havada oynatmaq, həmçinin onları başıma qoyub qalxmaq ən çətinidir. Amma ip üzərində nərdivan, velosiped, sinni ilə gəzmək də sevdiyim nömrələrimdir. Texniki məqamı ilə yanaşı, onun mürəkkəbliyi, təhlükəsi də böyükdür. Amma mayasında səbir, eyni zamanda çeviklik və ən sadə element minimalistlikdir. Bildiyiniz kimi, kəndirbazların təhlükəsizlik kəməri, yaxud düşmə ehtimalına görə döşəkcəsi olmur. Bizim yeganə silahımız balans dediyimiz alətdir ki, o da bizim tarazlığımızı saxlamağımıza yardımçı olur. Burada əsas məsələ həm də ipin tarımıdır. Bilirsiniz ki, ip hər iki tərəfdən haça dediyimiz ağaca, yaxud metal konstruksiyaya bərkidilir. Səhnədə, sim quraşdırmaq üçün ümumən 4 nəfər işləyirik. Əvvəl bu lap çətin idi. İndi 2 nəfərlə də qurmaq mümkündür. Çünki texniki təkmilləşmələr olub. Biz kəndirbazları iki nəfər musiqiçi də – qarazurna və nağarada müşayiət edir.

*– Sizdən neçə nəfərdir və bu qədim el sənətinə maraq yaratmaq üçün nələr etmək olar?*

– Hazırda ölkəmizdə cəmi 6 kəndirbaz var. Amildən isə bir dənədir (gülür). Sadəcə, təəssüf edirəm ki, bu sənət getdikcə sıradan çıxır, nəsil yenilənməsi zəifləyir, həvəskarların sayı azalır. Qalanlar da tədbirlərdə, xalq qarşısında çıxışlara maraq göstərmirlər. Hazırda bu istiqamətdə ən gənci mənəm. Düzü, bu da mənim həvəsimi qırır. Çünki rəqabət, yarış əzmi yoxdur.



*– Elm, texnika inkişaf etdikcə əyləncə vasitələri də müasirləşir. Əlində smartfonlar, fərqli oyuncaqlar olan uşaqlar üçün kəndirbazın ip üzərində manevrləri nə qədər maraqlıdır, sizcə?*

– Əvvəllər mən də sizin kimi düşünürdüm. Çünki bizə daha çox orta və yaşlı nəsil baxırdı. Amma son zamanlar balaca tamaşaçılarımızın sayı artıb. Deməli, siz deyən o texniki vasitələr artıq zehinləri yorub. Ən xoşuma gələn tamaşaçılarımız arasındakı o uşaqların maraqla ip üzərinə çıxmaq istəyidir. Bizim bəzi nömrələrimiz var ki, ora tamaşaçılarımızı da cəlb edirik. Məsələn, çiynimdə uşaqlarla ip üzərində gəzirəm. Hansısa uşağı çağıranda, valideyn onu kənara çəkib, bir növ etiraz eləsə də, uşaq israrla çağırışıma səs verib, gəlir.

*– Azərbaycandan daha çox təkliflər alırsınız, yoxsa?*

– Pandemiyadan öncə xarici ölkələrdə tez-tez olurdum. Bəzən, təkliflər arasından seçimlər də edirdim. Amma indi azalıb. Düzü, hər təklifə də getmirəm. Çünki, dediyim kimi, maddi baxımdan da təklif cəlbedici olmalıdır axı. Ölkəmizdəki tədbirlərə maraqla qatılıram. Əvvəllər daha çox Novruz bayramlarında olurdusa, indi fərqli kütləvi mərasimlərin də proqramlarına daxil edilir.

*– Kəndir sizi idarə edir, yoxsa siz onu?*

– Daha çox onu özümə uyğunlaşdırıram. Bir növ, bir-birimizi başa düşüb, yola veririk. Baxın, kəndirbaz ip üzərində gəzmək və atılıb-düşməklə cürbəcür oyunlar göstərən adam, necə deyərlər, canbazdır. Elədirsə, demək o, ipi də ram edər, ipdəkiləri də. Ümumən bu iş ilə elə mənim kimi bəstəboy, çəkisi yüngül adamlar məşğul ola gərək. Yəni bir kəndirbaz ən əsas çəkisinə nəzarət eləməlidir. Onu da deyim ki, bu sənətdə uzun illər qalmaq olmur. Zaman keçib, yaş ötdükcə, sözsüz ki, hamımızın səhhətində müəyyən problemlər yaranır. Belə olduqda ip üzərində hərəkətlər də məhdudlaşır, insanın özü üçün problem yaradır. Odur ki, özümə söz vermişəm, qocalanadək ipdən düşməyəcəm.

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

# Mədəniyyət Nazirliyi nəşrlərin satın alınması ilə bağlı müsabiqə elan edib

Mədəniyyət Nazirliyi tabeliyindəki kitabxanaların kitabxana fondlarını yeni nəşrlərlə zənginləşdirmək məqsədilə növbəti "Nəşrlərin satın alınması müsabiqəsi"ni elan edib. Müsabiqənin təşkilində şəffaflığı, səmərəliliyi və obyektivliyi təmin etmək məqsədilə müsabiqəni nazirlik tərəfindən yaradılan Nəşr planının tərtibi və nəşriyyat məhsullarının satın alınması üzrə komissiya həyata keçirəcək.



İştirakçılar tərəfindən nəşrlər avqustun 24-dək komissiyaya təqdim olunmalıdır.

Buraxılış məlumatında qiyməti göstərilməyən nəşrlərin dəyəri onun texniki göstəricilərinə, poliqrafik keyfiyyətinə görə mövcud bazar şərtləri əsasında müəyyənləşdiriləcək. Məzmun və poliqrafik baxımdan qüsurlu, ümumi tirajı 300-dən aşağı (iki və daha çox cildli olduqda hər cildin tirajı 300-dən aşağı) olan nəşrlərin satın alınmasına yol verilmir.

Müsabiqədə Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən nəşriyyatlar, nəşriyyat işi ilə məşğul olan poliqrafiya müəssisələri, digər hüquqi şəxslər və müəlliflər (müəllifik hüququ sahibləri) iştirak edə bilərlər.

İştirak etmək istəyən müəlliflər (müəllifik hüququ sahibləri) vergi ödəyicisinin eyniləşdirmə nömrəsinə sahib olmalı və ya müəllifi (müəllifik hüququ sahibi) olduqları nəşrləri çap olunduğu nəşriyyatlar vasitəsilə təqdim etməlidir.

Komissiyaya ünvanlanmış müraciətdə satın alınması göstərilən nəşrlərdən 2 nüsxə Azərbaycan Milli Kitabxanasına təqdim edilməlidir.

Müsabiqəyə aşağıdakı mövzular üzrə son iki ildə çap olunan nəşrlər təqdim edilməlidir:

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illiyi münasibətilə çap olunmuş nəşrlər;

Elmi və elmi-kütləvi ədəbiyyat – təbiət elmləri (kimya, fizika, mexanika, coğrafiya, biologiya, astronomiya və s.), ictimai (sosial) elmlər (tarix, hüquq, fəlsəfə, psixologiya, iqtisadiyyat, linqvistika, politologiya, antropologiya, etika və s.), texniki (tətbiqi) elmlər (kompüter mühəndisliyi, süni intellekt, kənd təsərrüfatı, ekologiya və s.);

Uşaq ədəbiyyatı;

Milli adət və ənənələr, bayramlar, tarixi rəmzlər və toponimlər barədə nəşrlər;

Azərbaycan etnoqrafiyası və milli-mədəni irsinə aid nəşrlər;

Vətən müharibəsinə aid yüksək məzmuna malik nəşrlər;

Görkəmli ədəbiyyat, incəsənət və ictimai xadimlər haqqında araşdırmalar və memuarlar.

Müsabiqə başa çatdıqdan sonra komissiya tərəfindən bir ay ərzində təqdim olunan nəşrlərin dəyərləndirilməsi aparılır və satın alınması nəzərdə tutulan nəşrlər barədə yekun siyahı tərtib edilir. Komissiya tərəfindən seçilən nəşrlərin satın alınması "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilək.

Müsabiqəyə təqdim olunan nəşrlərin nümunə nüsxələri geri qaytarılmır və Azərbaycan Milli Kitabxanasına təhvil verilir.

Müsabiqə və komissiyanın fəaliyyəti ilə bağlı müəyyən edilmiş meyarlarla Mədəniyyət Nazirliyinin saytında müvafiq linklərə daxil olaraq tanış olmaq mümkündür.

# "Ədəbi proses" davam edir

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təşkil etdiyi "Ədəbi proses" elmi-yaradıcılıq müşavirəsinin 10-cu yubiley tədbiri iyulun 21-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda keçirilib.



Ötən il üzrə ədəbi prosesə nəzər salınan tədbir çərçivəsində Ədəbiyyat İnstitutunda işıq üzü görmüş əsərlərdən ibarət sərgi və slayd nümayiş olunub.

"Ədəbi proses – 2022" elmi-yaradıcılıq müşavirəsini giriş sözü ilə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru akademik İsa Həbibbəyli açıb. Qeyd edib ki, XX əsrin 70-ci illərinin sonlarında və 80-ci illərin əvvəllərində Ədəbiyyat İnstitutunda görkəmli ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü Yaşar Qarayevin təşəbbüsü ilə "Ədəbi proses" müşavirələri keçirilib və materialları çap olunub.

Axırıncı "Ədəbi proses" elmi-yaradıcılıq müşavirəsinin 1984-cü ildə olduğunu deyən İsa Həbibbəyli 30 il sonra, 2014-cü ildə bu müşavirənin Ədəbiyyat İnstitutunda bərpa edildiyini diqqətə çatdırıb.

Vurğulanıb ki, "Ədəbi proses" yaradıcılıq müşavirəsi hər il özündən əvvəlki ilin ədəbi prosesini janrlar üzrə təhlil edir, dinlənilən məruzələrdə bu dövrdəki dinamika nəzərdən keçirilir, problemlər qeyd olunur.

Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar budəfəki tədbirin AYB-də keçirilməsini təqdir edib. Vurğulayıb ki, bədii yaradıcılıq və onun tədqiqi ədəbiyyatın iki qoludur. Həmişə Ədəbiyyat İnstitutu ilə AYB-nin sıx əlaqələri olub və bu münasibətlər indi də davam edir.

"Ədəbi proses – 10 il" elmi-yaradıcılıq müşavirəsində filologiya elmləri doktoru Elnarə Akimova "İlin ədəbi mənzərəsi", filologiya üzrə fəlsəfə doktorları Azər Turan "Poeziya", Maral Yaqubova "Nəsr", Aynurə Mustafayeva "Dramaturgiya" mövzularında məruzələrlə çıxış edirlər. Bundan əlavə, "Ədəbi tənqid" (AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu), "Ədəbi gənclik" (filologiya elmləri doktoru Vaqif Yusifli), "Uşaq ədəbiyyatı" (filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı) və digər mövzularda məruzələr təqdim edilib.

# Uşaq yazarı ilə görüş keçirilib

F.Köçərli adına Respublika Uşaq Kitabxanası iyulun 18-də 1 nömrəli Körpələr evinin balacaları ilə yazıçı Fatimə Alxazla (Yusifova) görüşünü təşkil edib.



Fatimə Alxaz autizm sindromu ilə bağlı real həyat hadisələri əsasında "Adını bilməyən oğlan" adlı hekayə kitabını yazıb. O həmçinin məktəbəqədər uşaqlar üçün "Əyləncəli məntiq", "Əyləncəli əlifba", "Əyləncəli riyaziyyat", "Məntiq və riyaziyyat", ibtidai siniflər üçün "Azərbaycan dili qaydaları", "Riyaziyyat qaydaları", "Atalar sözü hekayələrlə", "Avtomobildə 30 oyun" və s. kitabların müəllifi, bir çox kitabların tərcüməçisi və redaktorudur.

Əvvəlcə kitabxana əməkdaşı balacaları kiçik oxu zalında səsli, pazıllı, oyuncaqlı və digər maraqlı kitablarla tanış edib. Sonra yazıçı balacalar üçün maraqlı, ibrətamiz məzmunlu nağıllar oxuyub.

Sonda kiçikyaşlı oxuculara kitabxananın "Göy qurşağı" uşaq jurnalı hədiyyə edilib.

# Kitabxanada "Heydər Əliyev və mətbuat" mövzusunda tədbir

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasının oxucularla xidmət şöbəsi 22 iyul – Milli Mətbuat Günü ilə əlaqədar tədbir keçirib. Tədbirdə media təmsilçiləri, mədəniyyət sahəsi üzrə yazarlar, fəal oxucular iştirak ediblər.



Tədbiri kitabxananın abonement bölməsinin müdiri Lalə Səlimova açıb.

MKS-nin direktoru Lətifə Məmmədova Milli Mətbuat Günü münasibətilə peşə sahiblərini təbrik edib. Qeyd edib ki, ötən 148 ildə zəngin inkişaf yolu keçən Azərbaycan mətbuatında mədəniyyət tariximizin də salnaməsi əks olunub.

"Mədəniyyət. Culture" jurnalının baş redaktoru Əməkdar mədəniyyət işçisi Zöhrə Əliyeva, "Mədəniyyət" qəzetinin əməkdaşları Həmidə Rüstəmova, Səbinə Məmmədova, teatr yazarı Samirə Behbudqızı çıxış ediblər, mətbuatımızın tarixi və bu günü ilə bağlı fikirlərini bölüşüblər.

MKS-nin direktor müavini Könül Vəliyeva və oxuculara xidmət şöbəsinin müdiri Yeganə Qafarova media mənsublarına tədbirdə iştiraka görə təşəkkür ediblər.

# "Qərbi Azərbaycan toponimləri" elmi konfransına məqalə qəbul olunur

Bu ilin oktyabr ayında AMEA Nəsimi adına Dilçilik İnstitutunda "Qərbi Azərbaycan toponimləri" mövzusunda respublika elmi konfransı keçiriləcək.

Bu barədə institutdan məlumat verilib. Bildirilib ki, mövzu üzrə məqalələr Azərbaycan, türk, rus və ingilis dillərində qəbul olunur.

Konfransda iştirak etmək istəyənlər məqalələri sentyabrın 25-dək konfrans-toponimika@gmail.com ünvanına göndərməlidirlər. Konfransın mövzusuna və qoyulan tələblərə cavab verməyən məqalələr qəbul edilmir.

# Altıncı ANİMAFİLM festivalının müsabiqə iştirakçıları bəlli olub

## Dörd kateqoriya üzrə 39 filmə baxış keçiriləcək

Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə 6-10 sentyabr tarixlərində Nizami Kino Mərkəzində 6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçiriləcək.

Müsabiqə proqramına daxil edilmiş filmlərin siyahısı festivalın saytında yerləşdirilib.

Festivalın direktoru Rəşid Ağamalıyevin bildirdiyinə görə, filmlər beynəlxalq və uşaq münsiflər heyətləri tərəfindən qiymətləndiriləcək. Münsiflər heyətinin üzvləri yaxın zamanda açıqlanacaq.

Festivala 46 ölkədən ümumilikdə 174 film daxil olub. Seçim komissiyası müsabiqəyə 13 ölkədən 39 film qəbul edib. Bu filmlər 2 beynəlxalq və 2 yerli kateqoriyalar üzrə yarışacaq.

"Ən yaxşı qısametrajlı animasiya filmi" kateqoriyası üzrə 11, "Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi" üzrə 10, "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" üzrə 8, "Ən yaxşı Azərbaycan tələbə qısametrajlı animasiya filmi" kateqoriyası üzrə isə 10 film proqrama salınıb.




ANİMAFİLM festivalı 2018-ci ildən təşkil edilir. Festival uşaq və gəncləri, animasiya rejissorlarını və studiyaları bir araya gətirərək onları beynəlxalq təcrübə ilə tanış edir, peşəkar yerli və xarici animasiya ustalarını bir araya gətirir, ustad dərsləri, konfrans, sərgi və s. keçirir.

## Xatirə təqvimi — 26-28 iyul

### Azərbaycan

**26 iyul 1915** – Əməkdar artist, teatr rejissoru Əliheydər Əbdüləli oğlu Ələkbərov (1915 – 14.3.1975) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Azərbaycan Dövlət Teatr İnstitutunda dərs deyib.

**26 iyul 1920** – Azərbaycan Xalq Maarif Komissarlığının qərarı ilə "geniş zəhmətkeş proletar kütləsinin musiqi savadı alması" məqsədilə Bakının səkkiz fəhlə rayonunda şöbəsi olan musiqi təhsili müəssisəsi – Xalq Konservatoriyası açılıb. Bir il sonra Azərbaycan Dövlət Konservatoriyası yaradıldı.

**26 iyul 1947** – Əməkdar mədəniyyət işçisi, tanınmış fotojurnalist Farid Xabibullayeviç Xayrulin (1947 – 27.8.2020) Bakıda anadan olub.

**26 iyul 1949** – Əməkdar rəssam, heykəltaraş Zeynalabdin Əli oğlu İsgəndərov (1949 – 27.10.2021) Bakıda anadan olub. Görkəmli şəxsiyyətlərin qəbirüstü abidələrini, barelyeflərini hazırlayıb. Dövlət Rəssamlıq Akademiyasında çalışıb.

**26 iyul 1954** – Əməkdar mədəniyyət işçisi Rəhman Ağarəhim oğlu Quliyev (1954-2010) anadan olub. Azərbaycan Dövlət Kukla Teatrının direktoru olub.

**26 iyul 1995** – Xalq yazıçısı, ədəbiyyatşünas, publisist, ictimai xadim İsmayıl Qəhrəman oğlu Şıxlı (22.3.1919 – 1995) vəfat edib. Azərbaycan Yazıçılar İttifaqının birinci katibi (1981-1987), Milli Məclisin deputatı (1990-1995) olub.

**26 iyul 2008** – Xalq rəssamı Nadir Qənbər oğlu Əbdürrəhmanov (5.12.1925 – 2008 ) vəfat edib. Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədri olub.

**27 iyul 1991** – Əməkdar incəsənət xadimi, pianoçu, "Dan ulduzu" instrumental ansamblının yaradıcısı Gülarə Əziz qızı Əliyeva (17.11.1933 – 1991) vəfat edib. "Şüştər" rapsodiyası, "Humayun" süitası, "Bayatı-kürd", "Şur" fantaziyalarının müəllifidir.

**27 iyul 2012** – Əməkdar rəssam, Azərbaycan dekorativ-tətbiqi sənətinin tanınmış nümayəndəsi, professor Zahid İsa oğlu Hüseynov (20.3.1945 – 2012) vəfat edib.

**28 iyul 1928** – "Azərbaycan SSR Xalq artisti" və "Azərbaycan SSR Əməkdar artisti" fəxri adları təsis edilib.

**28 iyul 1935** – Görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Zülfüqar oğlu Adıgözəlov (1935 – 15.9. 2006) Bakıda doğulub. Oratoriya ("Odlar yurdu", "Çanaqqala"), opera ("Ölülər", "Natəvan"), kantata və s. əsərlərin müəllifidir. Filmlərə musiqi ("Şərikli çörək", "Həyat bizi sınayır") yazıb. Azərbaycan Bəstəkarlar İttifaqının sədri (2000-2006) olub.

**28 iyul 1937** – Görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi Müslüm Məhəmməd oğlu Maqomayev (18.9.1885 – 1937) vəfat edib. Azərbaycan peşəkar musiqili teatrının banilərindən biridir, "Şah İsmayıl" (1916), "Nərgiz" (1935) operalarını yazıb. Azərbaycan Radiosunda musiqi şöbəsinin rəhbəri olub, "Radio marşı"nı yazıb.

**28 iyul 1945** – Əməkdar mədəniyyət işçisi, ustad aşıq Səyyad Məşədi oğlu Pənahov (1945 – 16.2.2019) Gədəbəy rayonunun Kərimli kəndində anadan olub.

### Dünya

**26 iyul 1856** – İngilis (irland əsilli) yazıçı və dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1925) Corc Bernard Şou (George Bernard Shaw; 1856 – 2.11.1950) Dublin şəhərində doğulub. "Kandida", "Piqmalion", "Şeytanın şagirdi" və s. pyeslərin, "Artistin məhəbbəti", "Keşel Bayronun sənəti" romanlarının müəllifidir.

**26 iyul 1885** – Fransız yazıçısı, psixoloji və bioqrafik romanların müəllifi Andre Morua (Andre Maurois – əsl adı Emile Salomon Wilhelm Herzog; 1885-1967) anadan olub.

**26 iyul 1894** – İngilis yazıçısı Aldos Haksli (Aldous Leonard Huxley; 1894-1963) anadan olub.

**26 iyul 1928** – Amerika kinorejissoru Stenli Kubrik (Stanley Kubrick; 1928-1999) anadan olub. Filmləri: "Spartak", "Lolita" və s.

**26 iyul 1945** – Türkiyənin tanınmış teatr və kino aktyoru Metin Çekmez (1945 – 25.8.2021) anadan olub. İstanbul Şəhər Teatrında çalışıb, film və seriallarda yaddaqalan obrazlar yaradıb.

**27 iyul 1824** – Fransız yazıçı-dramaturqu Aleksandr (oğul) Düma (Alexandre Dumas; 1824 - 27.11.1895) anadan olub. Əsərləri: "Kameliyalı qadın" (roman və pyes), "Diana de Lis", "Yarıqaranlıq" (pyes), "Doktor Servan" (povest) və s. "Kameliyalı qadın" əsasında C.Verdi "Traviata" operasını yazıb.

**27 iyul 1835** – İtalyan şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1906) Cozue Karduççi (Giosue Carducci; 1835-1907) anadan olub.

**27 iyul 1853** – Rus yazıçısı Vladimir Korolenko (1853-1921) anadan olub. Əsərləri: "Makarın yuxusu", "Kor musiqiçi", "Qazmada yaşayan uşaqlar" və s.

**27 iyul 1915** – İtalyan opera müğənnisi, məşhur tenor Mario del Monako (Mario del Monaco; 1915-1982) anadan olub.

**28 iyul 1750** – Alman bəstəkarı Yohann Sebastian Bax (Johann Sebastian Bach; 31.3.1685 – 1750) vəfat edib. Operadan savayı əksər musiqi janrlarında əsərlər, o cümlədən 200-dən çox kantata, 250-dək orqan musiqisi yazıb.

**28 iyul 1812** – Polşa yazıçısı və tarixçisi Yuzef Kraşevski (Jozef Ignacy Kraszewski; 1812-1887) anadan olub. "Sehrli çıraq", "Qrafinya Kozel", "Bryul" və s. romanların müəllifidir.

**28 iyul 1866** – İngilis yazıçısı və rəssamı Beatriks Potter (Beatrix Potter; 1866-1943) anadan olub. Uşaqlar üçün əsərlərin müəllifidir: "Uxti-Tuxti", "Dovşan Piter və digər əhvalatlar".

**28 iyul 1887** – Fransız rəssamı və incəsənət nəzəriyyəçisi, dadaizm və sürrealizmin banilərindən Marsel Düşam (Marcel Duchamp; 1887-1968) anadan olub.

**Hazırladı: V.Orxan**

# Nəsirəddin Tusinin əsərləri çapdan çıxıb

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi şurasının qərarı ilə böyük Azərbaycan alimi və mütəfəkkiri Xacə Nəsirəddin Tusinin (1201-1274) "Övsafül-əşraf" və "Bist bab dər elmi-üstürlab" əsərləri bir kitabda nəşr olunub.




Kitaba Tusinin "Övsafül-əşraf"(Şərafət sahiblərinin vəsfi) və "Bist bab dər elmi-üstürlab"(Üstürlab elmi haqqında iyirmi bab) adlı iki risaləsi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Farsdilli Əlyazmaların tədqiqi şöbəsinin böyük elmi işçisi Rauf Şeyxzamanlı tərəfindən fars dilinə tərcümə olunaraq daxil edilib. R.Şeyxzamanlı kitaba geniş ön söz yazıb, qeyd və izahlar əlavə edib.

İyirmi babdan ibarət "Bist bab dər elmi-üstürlab" risaləsi ilk dəfə, altı babdan ibarət "Övsafül-əşraf" risaləsi isə müəyyən düzəlişlərlə təkrar nəşr olunub.

Qeyd edək ki, yeni nəşrin elmi redaktorları institutun Farsdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri filologiya elmləri doktoru Nəsib Göyüşov və mərhum şərqşünas alim, filologiya elmləri namizədi Müqəddəs Payızovdur.

№55 (2024)
26 iyul 2023
www.medeniyyet.az

# Bayburtda növbəti Dədə Qorqud festivalı keçirilib



Türkiyənin şimal-şərqindəki qədim Bayburt şəhəri ənənəvi Dədə Qorqud festivalına ev sahibliyi edib. 17-23 iyul tarixlərində keçirilən 27-ci Dədə Qorqud Mədəniyyət və Sənət Şölənlərinin proqramı zəngin olub.

Tədbirlər Bayburtda Dədə Qorqud məzar-türbəsinin ziyarəti ilə başlayıb. Əfsanəyə görə, Dədə Qorqud burada dəfn olunub.

Oğuz elinin atası Dədə Qorqudun irsinə diqqət çəkmək və Türk dünyasının ortaq dəyərlərindən biri kimi təbliğ etmək məqsədi daşıyan festival 1994-cü ildən başlayaraq hər il iyul ayının üçüncü həftəsində təşkil edilir.

Builki tədbirlərə də çoxsaylı qonaqlar qatılıb.

Dədə Qorqud ümumtürk mədəniyyətinin ən mühüm simvollarından biridir. "Dədə Qorqud" dastanında bəhs edilən qəhrəmanlıq hekayələri qədim türk tarixinə və mədəni keçmişinə işıq salmağa davam edir.

Festival çərçivəsində milli yeməklərin təqdimatı, sərgilər, konsertlər, folklor tamaşaları, konfranslar və şeir axşamları təşkil edilib.

İyulun 18-də Bayburt Bələdiyyəsinin Taşhan qalereyasında rəsm sərgisi açılıb. Həmin gün "Türk yüz ili və Dədə Qorqud"



mövzusunda simpozium keçirilib. 19 iyulda bələdiyyənin təşkilatçılığı ilə "Bayburt Evi" muzeyinin açılışı olub.

Festivalın maraqlı tədbirlərindən biri də "Şair Zihni şeir gecəsi" olub. Bayburtlu Zihni (əsl adı Mehmed Emin; 1795-1859) həm klassik (divan ədəbiyyatı), həm də xalq şeiri üslubunda əsərləri ilə tanınan şair olub.

27-ci Dədə Qorqud Mədəniyyət və Sənət Şölənlərinə iyulun 23-də Aydıntəpə yaylağında düzənlənən konsert və xalq oyunları nümayişi ilə yekun vurulub.

Qeyd edək ki, 2018-ci il noyabrın 28-də UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında (Mavriki Respublikası, Port Luis şəhəri) Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə təqdim etdiyi "Dədə Qorqud irsi: dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli nominasiyası Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.

# 1 milyard dinləməyə görə

## "Queen" qrupu illər sonra mükafat alıb

Əfsanəvi "Queen" rok qrupu Böyük Britaniyada 1 milyard dinləməyə görə "Brit Billion Award" mükafatını alıb. Hesablamanı "Official Charts Company" şirkəti aparıb.



"Brit Awards" şirkətinin mükafatı Brayan Mey və Rocer Teylora verilib. "Qrup adından bu mükafatı almaqdan həyəcan keçirirəm. Bir milyard dinləmə – bu, inanılmazdır. Biz hələ ki, buradayıq və sizi bir az daha əyləndirməyə ümid edirik", – deyə qrupun gitara ifaçısı Brayan Mey bildirib.

"Queen" yarandığı 1970-ci ildən 90-cı illərinin ortalarına qədər dünya şöhrəti qazanan ingilis rok qrupudur. Qrupun vokalçısı və bəstəkarı, İran əsilli Freddi Merkuri (əsl adı Fərrux Balsara) 1991-ci ildə vəfat edəndən sonra "Queen" faktiki olaraq fəaliyyətini dayandırıb, amma qalan üzvlərinin konsert çıxışları ara-sıra davam edib.

"Queen" rok musiqisi tarixinin ən uğurlu qruplarından biridir, albomlarının ümumi dünya tirajı 300 milyonu ötüb. Qrupun "We will Rock you" və "We are the Champions" mahnıları rok musiqisinin ən məşhur mahnıları sayılır.

# Ölümsüz canlı

## 66 milyon ildir yaşayır...

Neapoldakı (İtaliya) zooloji stansiyada çalışan alimlər okeanda əbədi yaşaya bilən meduza növünü ("Turritopsis dohrnii") aşkar ediblər. Zooloqlar bu kəşf haqqında "The Biologist" jurnalında məlumat veriblər.

Tədqiqatçılar qeyd ediblər ki, bu növün bəzi nümayəndələri təxminən 66 milyon ildir yaşayır. Onlar dinozavrların nəsli kəsilmədən əvvəl doğulublar. Meduzaları tədqiq edən alimlər onların əks istiqamətdə qocalması qənaətinə gəliblər. Çox qocaldıqda və ya zədələndikdə meduza polip mərhələsinə geriləyir və sonra yenidən böyüyür. Bunun üçün o, "çadır"larını udur və dənizin dibində hüceyrələr toplusuna çevrilir.

Zooloqlar bu dövrü laboratoriyada təkrarlaya biliblər. Məlum olub ki, meduzalar iki il ərzində 10 dəfəyə qədər polip mərhələsinə qayıdır. Tədqiqat zamanı alimlər qocalma və DNT ilə əlaqəli mindən çox geni müəyyən edə biliblər. Əlavə genetik analizlər əbədi həyatın altında yatan hüceyrə mexanizmlərinə işıq salmağa kömək edəcək.

# Siqaret və alkoqoldan imtina, düzgün qidalanma, normal yuxu

## Ömrü 20 il uzadır...

Amerika Qidalanma Cəmiyyəti mütəxəssislərinin araşdırmasına görə, fiziki aktivlik, ağrıkəsici dərmanlara aludə olmamaq, siqaret çəkməmək, stressi effektiv idarə etmək, sağlam qidalanma, müntəzəm spirtli içki içməmək, yaxşı yuxu rejiminə riayət etmək və müsbət sosial münasibətlər ömrü uzadan vərdişlərdir.

Bu barədə tədqiqatın nəticələri Amerika Qidalanma Cəmiyyətinin illik toplantısında təqdim olunub.

Tədqiqat işində 700 mindən çox insan iştirak edib. Nəticələrə görə, səkkiz vərdişin hamısına sahib olan kişilər orta hesabla 24 il, qadınlar isə 21 il daha çox yaşayırlar.

Fiziki hərəkətsizlik, ağrıkəsici dərmanlardan istifadə və siqaret ömür uzunluğuna ən çox təsir edən amillərdir və ölüm riskini 30-45 faiz artırır. Stress, həddindən artıq spirt istehlakı, pis qidalanma və yuxu rejiminə riayət edilməməsi də ölüm riskinin təxminən 20 faiz, müsbət sosial əlaqələrin olmaması isə 5 faiz artmasına səbəb olur.

# Davamını süni intellekt yazır...

## Amma əsl yazıçı səviyyəsinə çatmayıb



ChatGPT süni intellekti Corc Martinin "Buzun nəğməsi" adlı kitablar silsiləsinin ardını generasiya edib. Bu əsər əsasında məşhur "Taxt-tac oyunları" serialı lentə alınıb.

Proqramçı Liam Sueyn bu məsələdə süni intellektin köməyindən istifadə etmək qərarına gəlib. O, əvvəlcə "ChatGPT" çat-botuna mətnin qaralamasını hazırlamağı təklif edib. Sonra proqramçı bütün detalları təsvir etməklə, həmin mətni tam şəkildə genişləndirməyi xahiş edib. Bunun ardından isə proseduru 45 dəfə təkrarlayıb.

Nəticədə süni intellekt iki kitab "yazıb": "Qış küləyi" və "Bahar xəyalları". Görülmüş işə yekun vuran proqramçı qeyd edib ki, çat-botun işinin yekunları onun gözlədiyindən yüksək səviyyədə olub. Neyroşəbəkə Con Konninqtonla bağlı maraqlı süjet "fikirləşə" bilib. O, gözlənilmədən xəyanətkar olub və Deyenarisə qarşı çıxıb.

Bununla yanaşı, Sueyn qeyd edib ki, süni intellekt bu əsərin müəllifi olan Corc Martinin bədii ustalıq səviyyəsinə yaxınlaşa bilməyib.

# Nüvə bombasının "ata"sı haqqında...

## "Oppenheimer" filmi dünya prokatına rekordla başlayıb

Britaniya-ABŞ rejissoru və ssenarist, müasir kinoda ən gəlirli layihələrin müəllifi kimi tanınan Kristofer Nolanın "Oppenheimer" filmi nümayişə başladığı ilk həftədə bioqrafik filmlər arasında rekord göstərici əldə edib.



Ekran əsəri ABŞ-dakı yerli nümayişlərdən (premyera 12 iyulda olub) 80 milyon dollar qazanc gətirib. Halbuki ilk həftə üçün bu göstərici 50 milyon dollar gözlənilirdi.

İlk həftədə ümumilikdə dünya prokatından əldə edilən gəlir isə 180 milyon dollara çatıb. İndiyədək bioqrafik filmlər arasında ilk həftə prokatının rekordu 2018-ci ildə 124 milyon dollarla nümayişləri başlayan "Bohemian Rhapsody" musiqili dramına məxsus idi.

Qeyd edək ki, 1945-ci ildə ABŞ-də hazırlanan ilk atom bombasının yaradıcısı, məşhur fizik Robert Oppenheimerin (1905-1967) həyatından bəhs edən film 50-dən çox ölkədə uğurlu debütünə görə Kristofer Nolanın ən böyük layihəsinə çevrilə bilib. "Universal Pictures" studiyasında çəkilən 180 dəqiqəlik filmin büdcəsi 100 milyon dollardır. "Oppenheimer"in ssenarisini (Kay Berd və Martin Şervinin kitabı əsasında) də Kristofer Nolan özü yazıb.

İndiyədək onun 10 filmi dünya prokatında ümumilikdə 7 milyard dollara yaxın gəlir gətirib, üstəlik 8 "Oskar" mükafatı qazanıb.

"Oppenheimer" filminin dünya prokatına çıxması ABŞ-nin ilk nüvə bombasının poliqon sınağının (16 iyul 1945-ci il) ildönümünə təsadüf edib. 1945-ci ilin 6 və 9 avqustunda isə amerikalılar dəhşətli silahı Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atmaqla "real sınaq"dan keçirdilər. 200 min insanın həlak olduğu bu hadisəyə görə ABŞ indiyədək yapon xalqına üzrxahlıq etməyib.

**V.Kamal**




Olaylar, faktlar (26–28 iyul)

### 300 il əvvəl...

**28 iyul 1723-cü ildə** Çar I Pyotrun göndərdiyi rus qoşunları Bakını işğal edib. Bakı hakimi Məhəmmədhüseyn bəy sürgünə göndərilib. Bu, Rusiyanın Azərbaycan üzərinə birinci işğalçılıq yürüşü idi. 1735-ci ildə ruslar Səfəvi dövləti ilə bağlanmış müqavilənin şərtlərinə görə, Azərbaycan torpaqlarını tərk etdilər. Rusiya imperiyasının Azərbaycana ikinci və həlledici yürüşü XIX əsrin əvvəlində başlandı.

### 219 il əvvəl...

**27 iyul 1804-cü ildə** Rusiya-İran müharibəsində (1804-1813) ilk toqquşma – Üçmüədzin döyüşü olub. İrəvan xanlığının ərazisindəki Üçmüədzin kəndi (indiki Ermənistanın Eçmiədzin rayonu) yaxınlığında baş verən döyüşdə İran qoşunları rusları məğlub ediblər. Sentyabrın 4-də Qəmərli kəndi (indiki Ermənistanda Artşat qəsəbəsi) yaxınlığında ikinci döyüşdə də məğlub olan Rusiya qoşunları geri çəkilib. Lakin 1805-ci ilin əvvəlində Şəki və Qarabağ xanlıqları istiqamətində yenidən yürüşə başlayan ruslar həmin ilin mayında (Kürəkçay müqavilələri) hər iki xanlığı ələ keçirdilər.

### 193 il əvvəl...

**27 iyul 1830-cu ildə** Fransada növbəti inqilab başlanıb. Avqustun 7-dək sürən "İyul inqilabı" nəticəsində Kral X Karl taxt-tacdan əl çəkib, onun yerinə I Lui Filipp taxta çıxıb. Radikal çıxışlar Avropanın bir sıra ölkələrini, o cümlədən Almaniya, Avstriya-Macarıstan və İtaliyanı bürüyüb.

### 109 il əvvəl...

**28 iyul 1914-cü ildə** I Dünya müharibəsi (1914-1918) başlanıb. "Antanta bloku" (Rusiya, Fransa, Böyük Britaniya) və "Dördlər ittifaqı" (Almaniya, Avstriya-Macarıstan, Osmanlı, Bolqarıstan) arasında müharibə Avstriya-Macarıstanın Serbiyaya savaş elan etməsi ilə alovlanıb. 1 avqustda Serbiyanın müdafiəçisi kimi Rusiya müharibəyə qoşulub. Ardınca Almaniya, avqustun 3-də Fransa, 4-də Britaniya, sonra Osmanlı dövləti savaşa qatılıb. Dörd il (11 noyabr 1918-ci ilədək) sürən müharibədə ümumilikdə 38 dövlət iştirak etmiş, 12 milyondan çox insan



həlak olmuşdu. Müharibə nəticəsində dörd imperiya (çar Rusiyası, Osmanlı, Avstriya-Macarıstan, kayzer Almaniyası) süqut etdi.

### 85 il əvvəl...

**26 iyul 1938-ci ildə** Azərbaycan SSR-in yeni Konstitusiyasına uyğun olaraq respublikanın ərazi-inzibati bölgüsündə rayonlar şəbəkəsi qanunla təsbit edilib. Bir sıra rayon və qəsəbələrin adları dəyişdirilib: Qaradonlu rayonu İmişli, Hil – Qusar, Zuvand – Lerik, Biləsuvar – Puşkin, Nərimanov – Xanlar, Vəryadüz – Yardımlı rayonları adlandırılıb. Bundan əlavə, Zubovka kəndi Əli Bayramlı (indiki Şirvan) şəhəri, Goranboy kəndi Qasım İsmayılov qəsəbəsi, alman icmasının yaşadığı Annino qəsəbəsi Şamxor (indiki Şəmkir), Helenendorf qəsəbəsi isə Xanlar (indiki Göygöl) qəsəbəsi adlandırılıb.

### 71 il əvvəl...



**27 iyul 1952-ci ildə** Volqa-Don kanalı istifadəyə verilib. Leninin adını daşıyan kanalın tikintisi hələ 30-cu illərdə başlamışdı. 101 kilometr uzunluğunda olan kanal Xəzər və Qara dənizlərinin naviqasiya sistemini birləşdirmək üçün strateji əhəmiyyət daşıyır. Kanal Azərbaycanın Xəzərdəki gəmilərinin dünya okeanına (Qara dəniz – Aralıq dənizi) çıxışı üçün yeganə su yoludur.

### 70 il əvvəl...

**27 iyul 1953-cü ildə** Koreya müharibəsi başa çatıb. Beynəlxalq hərbi kontingentin (BMT bayrağı altında) komandanı ABŞ generalı Vilyam Harrison və Şimali Koreya generalı Ham İrin imzaladığı sülh sazişinə əsasən, Şimali Koreya qoşunları 1950-ci ilə qədər olan sərhədlərə geriləyib, 38-ci paralel üzrə Şimali və Cənubi Koreya arasında demarkasiya zonası müəyyən edilib.

**Hazırladı: V.Orxan**

Mədəniyyət Nazirliyinin kollektivi "Mədəniyyət" qəzeti redaksiyasının əməkdaşı Savalan Fərəcova oğlu
**Kamil Fərəczadənin**
vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.
**Allah rəhmət eləsin.**

***

"Mədəniyyət" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Savalan Fərəcova oğlu
**Kamil Fərəczadənin**
vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.
**Allah rəhmət eləsin.**

***

"Yaradıcı Qadınlar" İctimai Birliyinin üzvləri qurama ustası, kimyaçı alim
**Xalidə Nəsirovanın**
vəfatı ilə bağlı mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.
**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır
**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 1921
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.
**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641